www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9-10 may 2019-cu il Cümə axşamı № 100 (7270) Qiyməti 60 qəpik

Xəbər

## Şəmkirdə avtoqəzada 3 nəfər həlak oldu

yazısı səh.2-də

Gündəm

### Mehriban Əliyeva gənclərin səsinə səs verdi: tarixi bina sökülmədi



Bəxtiyar Sadıqov: "Belə təmaslar həm islahatların sürət və keyfiyyətinə təsir edəcək, həm də..."

yazısı səh.5-də

### Heydər Əliyev Fondunun 15 ili

yazısı səh.6-da

### 9 May qələbəsində payı olan canlı tarixlər...

yazısı səh.4-də

### İrəvandan Şuşa təxribatı - Bakının cavabı gecikmədi

yazısı səh.11-də

### Azərbaycanda internet ucuzlaşacaq

yazısı səh.6-da

### Emin Millinin iqtidara pozitiv mesajları niyə qınanır?

yazısı səh.7-də

### İstanbulda yeni seçki ölkə iqtisadiyyatını silkələyir

yazısı səh.8-də

### İran-ABŞ gərginliyi: "Tətiyə birinci kim basacaq" sualı...

yazısı səh.10-da

### Ölkədən çıxışına qadağa qoyulan sənətçilər

yazısı səh.15-də

### Azərbaycanlıların "Türkiyə seçkisi sevdası"nın səbəbləri

yazısı səh.10-da

# İRƏVAN HƏLƏ ALINMAYAN QIRICILARLA ÖYÜNÜR, BAKI İSƏ...

**Rusiyaya xilaskar kimi baxmaq zorunda qalan "qərbçi" Paşinyanın başı dərddə:** cəmi 1 il qabaq ölkəsinin Moskvadan vassal asılılığını azaldacağına söz vermişdi, indi isə...; "İsrail Azərbaycanın düşməninə bir güllə belə verməyəcək" - yəhudi dövlətinin sabiq briqada generalı...



yazısı səh.9-da

**Ramazan ayının 4-cü günü**

İftar19.59. İmsak 03.51-dək (QMI)

4-cü günün duası: "İlahi, Sənin əmrini bərpa etmək üçün mənə qüvvət ver! Səni zikr və yad etməyin şirinliyini mənə dadızdır! Öz kəreminlə məni şükür etməyə hazır et! Məni Öz hifzinlə və pis işlərdən qoruyan örtüyünlə qoru! Ey, görənlərin ən Bəsirətlisi!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN.

## İstehlak kreditlərinin biznes kreditlərindən çox olmasının gizlinləri

**Ekspert:** "Azərbaycan bankları istehlak kreditlərini verməkdə daha çox maraqlıdırlar, çünki..."

yazısı səh.13-də



### Fərəc Quliyev Şuşanın işğalı ilə bağlı maraqlı faktlar açıqladı

yazısı səh.3-də



*Rasim Balayev:*

### "Şit kinolarla camaatın zövqü korlanır, çoxu hır-hırı sevir"

yazısı səh.12-də



*Siyavuş Novruzov:*

### "Mitinq keçirəndə özləri təxribat törədəcəklər, sonra bunu iqtidarın üzərinə atacaqlar"

yazısı səh.3-də

**9-10 may 2019**

# "Son 15 ildə təhsil sahəsinə ayrılan vəsait 8 dəfə artırılıb" - Novruz Məmmədov



**Mayın 8-də Baş Nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.**

ONA-nın xəbərinə görə, iclası açan N.Məmmədov Azərbaycan musiqisinin beşiyi, ölkəmizin əsrarəngiz gözəlliyə malik guşələrindən biri hesab edilən Şuşa şəhərinin erməni qəsbkarları tərəfindən işğalından 27 il ötdüyünü bildirib: "İşğal nəticəsində Azərbaycanın füsünkar təbiətə malik bu şəhərindəki zəngin tarixi-mədəni abidələr, muzeylər dağıdılıb. Nüfuzlu beynəlxalq təşkilatların Ermənistanın işğalçılıq siyasətini pisləyən qərar və qətnamələrinə, dünyanın aparıcı dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinə baxmayaraq, işğal hələ də davam edir. Dövlətimizin başçısı İlham Əliyevin də hər zaman qeyd etdiyi kimi, Azərbaycan heç vaxt indiki vəziyyətlə barışmayacaq və ərazi bütövlüyünü bərpa edəcək".

**Xalqımızın ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünü qeyd etdiyini bildirən Novruz Məmmədov deyib ki, ümummilli liderimizin əziz xatirəsi hər bir Azərbaycan vətəndaşının qəlbində daim yaşayır və yaşayacaq:** "Bu gün müstəqillik yolunda uğurla addımlayan və gündən-günə inkişaf edən Azərbaycanın qazandığı böyük nailiyyətlər məhz ulu öndər Heydər Əliyev dühasının bəhrəsidir. Hər birimiz bugünkü firavan həyatımıza, xoş gələcəyimizə görə əbədiyaşar liderimizə borcluyuq".

Sonra N.Məmmədov iclasın gündəliyi barədə məlumat verib.

Bildirilib ki, iclasın gündəliyinə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icra vəziyyəti və yeni layihənin müzakirəsi, həmçinin "Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbul planlarının tərtibi təcrübəsi və 2019-2020-ci tədris ili üçün tələbə qəbulu planının tərtib edilməsi" haqqında məsələlər daxil edilib.

Baş nazir deyib ki, 1996-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işinin əlaqələndirilməsi məqsədilə komissiya yaradılıb. Prezident İlham Əliyev də ölkəmizdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni mühüm vəzifə kimi müəyyənləşdirib. Dövlətimizin başçısı bununla bağlı qarşıya ciddi vəzifələr qoyub. Bu sahədə mühüm uğurların əldə olunduğunu vurğulayan Novruz Məmmədov qeyd edib ki, qazanılan nailiyyətlərdə müvafiq dövlət proqramlarının mühüm rolu olub.

Dövlətin təhsilin inkişafına xüsusi diqqət ayırdığını deyən baş nazir qeyd edib ki, son 15 ildə dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitin 8 dəfə artırılması, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsi Prezident İlham Əliyevin təhsilə göstərdiyi böyük qayğının təcəssümüdür. Əsas məqsəd ölkəmizdə keyfiyyətli təhsil sisteminin qurulması, yüksəkixtisaslı, zəngin dünyagörüşlü kadrların yetişdirilməsindən ibarətdir.

Sonra daxili işlər nazirinin birinci müavini Vilayət Eyvazovun, təhsil naziri Ceyhun Bayramovun gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib.

İclasda mövzularla bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.



## Prezident İlham Əliyev israilli həmkarını təbrik etdi

**Prezident İlham Əliyev İsrail Dövlətinin Prezidenti Reuven Rivlini təbrik edib. ONA xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli cənab Prezident,**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycanla İsrail arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsrail xalqına əmin-amanlıq və firavanlıq diləyirəm".

## Səhiyyə Nazirliyi çimərliklərdə monitorinqə başlayıb

**Səhiyyə Nazirliyi tərəfindən çimərliklərdə dəniz suyunun monitorinqinə başlanılıb.**

Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri Ziyəddin Kazımov ONA-ya deyib ki, monitorinq zamanı çimərliklərdə dəniz suyunun laborator müayinələri aparılır.

Z. Kazımov qeyd edib ki, monitorinq Bakı, Abşeron, Azərbaycanın şimal və cənubunda yerləşən bütün çimərlikləri əhatə edəcək, dəniz suyu kimyəvi, bakterioloji, radioloji və toksikoloji analizlərdən keçiriləcək: "Analizlərin nəticələri, çimərliklərin hansının istifadəyə yararlı olub-olmadığı barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ictimaiyyətə geniş məlumat veriləcək".

## "ASAN xidmət" işçi axtarır

**2019-cu il ərzində Bakı şəhərində və bölgələrdə 6 yeni "ASAN xidmət" mərkəzi fəaliyyətə başlayacaq.**

"ASAN xidmət"in mətbut xidmətindən ONA-ya verilən məlumata görə, "Dövlət qulluğu haqqında" Qanunun 28-ci maddəsinə əsasən, yeni açılacaq Tovuz, Şamaxı, Kürdəmir, Ağcabədi, Balakən və 6 saylı Bakı "ASAN xidmət" mərkəzlərində olan vakant inzibati vəzifələr üzrə elan yaxın vaxtlarda Dövlət İmtahan Mərkəzinin (www.dim.gov.az) və Dövlət Agentliyinin (www.vxsida.gov.az) internet saytlarında yerləşdiriləcək.

Elan olunacaq vakant inzibati vəzifələrə sertifikatı olan, vəzifənin tutulma şərtlərinə uyğun olan vətəndaşlar müraciət edə bilərlər.

Müsahibəyə hazırlaşarkən Dövlət İmtahan Mərkəzinin internet saytında yerləşdirilən müsahibə proqramından istifadə olunması tövsiyə edilir.


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**


## QK-nın toplantısı keçirilib - tələblər və hökumətə müraciət...

**Mayın 8-də Qarabağ Komitəsinin toplantısı keçirilib. İclasdan öncə komitə üzvləri Şuşanın işğalı ilə bağlı Şəhidlər Xiyabanını, Milli Qəhrəman Ramiz Qəmbərovun anıt qəbrini və Türk Şəhidliyi abidəsini ziyarət ediblər.**



Toplantı barədə komitənin dönəm sədri, sabiq baş nazir, AXP sədri Pənah Hüseyn "Yeni Müsavat"a məlumat verdi: "Bu toplantıda 60-a yaxın səsvermə hüquqlu komitə üzvü iştirak edirdi. İştirakçıların ümumi sayı isə 80 nəfərdən çox idi. Toplantıda Azərbaycanla Gürcüstan arasında Keşikçidağ tarixi abidələr kompleksi deyilən yerdəki yaranan mübahisələrlə bağlı müzakirələr aparıldı.

Qarabağ mitinqlərinə icazə verilməməsi ilə əlaqədar fikirlər səsləndi ki, Bakı Şəhər İcra Hakimiyyəti komitənin keçirmək istədiyi mitinqləri müharibə təbliğatı kimi qəbul edir. Bunun Azərbaycanın maraq və mənafelərinə, hüquqa zidd olduğu önə çəkildi. Bu məsələyə hökumətin ən yuxarı orqanlarının münasibət bildirməsi tələb olundu. Komitə bir məsələyə də diqqət yetirdi. Virualaz.org saytının baş redaktoru, tanınmış jurnalist, ictimai rəydə iqtidarın mövqeyinin dəstəkçisi kimi qəbul olunan Eynulla Fətullayevin Şuşa ilə bağlı sosial şəbəkədə yazdığı status ətrafında ciddi müzakirələr getdi.

Toplantıda təşkilati məsələlərə də baxıldı. Komitəyə 5 yeni üzv qəbul olundu. Gəncədə Qarabağ Komitəsi ilə bağlı yaranmış vəziyyətlə əlaqədar oradan nümayəndə seçilən Nuru bəyin məlumatı dinlənildi və nəzərə alınması məqsədəuyğun sayıldı. Növbəti əsas məsələlərdən biri də "Azərbaycanın müharibə hüququ varmı" mövzusunda dəyirmi masaya hazırlıq məsələsi və bunun davam etdirilməsi müzakirə edildi".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

## Gürcüstanlı deputatlar Bakıda bir sıra görüşlər keçirdilər

**Gürcüstan-Azərbaycan Parlament Dostluq Qrupunun üzvlərindən ibarət nümayəndə heyəti Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərovla görüşüblər.**

ONA-nın xəbərinə görə, Gürcüstan parlamentinin nümayəndələri Azərbaycan və Gürcüstanın strateji tərəfdaşlar olduğunu bildiriblər.

Z. Əsgərov Azərbaycan və Gürcüstanın parlament səviyyəsindəki əməkdaşlığının qanunvericilik məsələlərini əhatə etməsinin əhəmiyyətini vurğulayıb. O bildirib ki, regionda reallaşmaqda olan böyük layihələrin hüquqi münasibətlər sisteminə də təsiri qaçılmazdır: "Bu baxımdan ölkələrin qanunvericiliklərində müəyyən unifikasiya işlərinin aparılması nəzərdən keçirilə bilər. Mövcud istiqamətdə danışıqlar aparılmalıdır".

Gürcüstan parlamentinin sədr müavini, Gürcüstan-Azərbaycan parlament dostluq qrupunun sədri Zviad Dzidziquri çıxışında sırf qanunvericilik müstəvisindəki əməkdaşlığın əhəmiyyətinə önəm verib və bu baxımdan azərbaycanlı həmkarının fikirlərini bölüşdüyünü deyib.

Nümayəndə heyətinin üzvləri Azərbaycan Xarici İşlər Nazirliyində nazir müavini Ramiz Həsənovla görüşüblər. Görüşdə iki ölkə arasındakı qarşılıqlı əməkdaşlığın hazırkı dinamikasını əks etdirən məqamlara toxunulub. Regional əməkdaşlıq platformasının Azərbaycanın və Gürcüstanın dövlət müstəqilliyinin əbədilik təminatı olduğuna diqqət yetirilib.

Gürcüstanın parlament təmsilçilərindən ibarət nümayəndə heyəti üzvləri dünən Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə də görüşüblər. Görüşdə Azərbaycan və Gürcüstanı birləşdirən tarixi dəyərlərin müasir beynəlxalq tərəfdaşlıq üçün etibarlı baza rolunu oynadığı vurğulanıb.

## Şəmkirdə mikroavtobusla "07"nin dəhşətli qəzası - 3 ölü

**Şəmkir rayonunda dəhşətli avtoqəza baş verib.**

ONA-nın yerli bürosunun verdiyi xəbərə görə, rayonun Qaracəmilli kəndində hərəkətdə olan mikroavtobusla "VAZ-2107" markalı minik avtomobili toqquşub. Zərbənin təsirindən mikroavtobus aşıb. Nəticədə "VAZ-2107"nin sürücüsü Vidadi Gülməmmədov, sərnişinləri - 74 yaşlı Şücaət Gülməmmədova və 3 yaşlı Ayxan Gülməmmədov ölüblər.

# Hakim partiyanın rəhbər şəxsindən ilginc açıqlamalar

## Siyavuş Novruzov: "Mitinq keçirəndə özləri təxribat törədəcəklər, sonra bunu iqtidarın üzərinə atacaqlar"

**Bakı ilə Brüssel arasında imzalanması nəzərdə tutulan saziş üzərində işlər tam başa çatmaq üzrədir. Bu arada Avropa İttifaqının Azərbaycandakı səfiri Kestutis Yankauskas deyib ki, strateji tərəfdaşlıq barədə yeni saziş üzrə danışıqlar davam etdirilir: "Sazişin tez bir zamanda imzalanması üçün mümkün olan işlər yerinə yetirilməlidir".**

Aİ nümayəndəsi Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə tarixi səfəri haqda da danışıb. "Gələn həftə, Şərq Tərəfdaşlığının 10 illiyinə həsr olunmuş tədbirlərdə Prezident İlham Əliyevi Brüsseldə salamlamaqdan məmnuniyyət duyardıq" - Yankauskas Azərbaycanla əməkdaşlığa nə qədər böyük önəm verdiyinə işarə edib. Səfir Avropa Günü şərəfinə Bakıda keçirilən qəbulda deyib ki, Azərbaycan Aİ-nin mühüm tərəfdaşıdır və biz Azərbaycanla Avropanı bir-birinə daha da yaxınlaşdıracaq böyük bir razılaşma üzərində işləyirik.

YAP-ın icra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov "Yeni Müsavat"ın bu və digər mövzularla bağlı suallarını cavablandırdı:

***- Siyavuş bəy, Azərbaycan prezidenti Brüsseldə keçiriləcək tədbirə dəvət olunub. Hakim partiya Azərbaycanla Avropa İttifaqı arasındakı əməkdaşlığı və bu əməkdaşlığın perspektivlərini necə dəyərləndirir? Mümkündürmü elə bu səfər zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında saziş imzalansın?***

- Təbii ki, Azərbaycan Avropa İttifaqı ilə sıx əməkdaşlıq edir. Burada iqtisadi sahədə çox böyük əməkdaşlıq var, 20 milyard avrodan artıq iqtisadi əməkdaşlığımız mövcuddur. İndiyə qədər mövcud olan əməkdaşlıq davam edir və bu, hər iki tərəf üçün məqbuldur. Görürsən, bəziləri tələm-tələsik Avropa İttifaqına daxil olur, heç Avropa standartlarına cavab vermədən istəyirlər ki, problemlərini Avropa çərçivəsində həll etsinlər. Bəziləri isə Avropa İttifaqına ona görə daxil olur ki, qrant alsın, borc alsın, öz iqtisadiyyatını bu qurumun hesabına qursun. Azərbaycan isə inkişaf etmiş bir ölkədir. Azərbaycanın istər qanunvericiliyi, biznes mühiti, iqtisadiyyata olan diqqət, iqtisadi inkişaf, sərmayələrin qoyuluşu üçün yaradılan şərait tam Avropa standartlarına cavab verir. Həmçinin qanunlarımız və həyat tərzimiz Avropa standartlarına tam uyğundur. Bu baxımdan Azərbaycanla əməkdaşlıq Avropa üçün heç bir problem yaratmır. Ona görə də ölkəmizlə əməkdaşlığı inkişaf etdirməkdə, daha da genişləndirməkdə maraqlıdır. Azərbaycan da bərabərhüquqlu tərəf kimi öz əməkdaşlığını davam etdirməyə hazırdır. Azərbaycan bloklara qoşulmamaq hərəkatının üzvüdür. Ölkəmiz heç bir bloka qoşulmur, yaxud da böyük-kiçik dövlət münasibətləri qurmur, sadəcə, bərabərhüquqlu qaydada münasibətlər qurur. Bu mənada güman edirəm ki, Avropa bu məsələni yetərincə dəyərləndirir.



***- Sazişin imzalanması məsələsində konkretlik varmı?***

- May ayında olacaq. Buna uzun müddətdir ki, hazırlıq gedir.

***- Sazişdə ərazi bütövlüyümüzün Avropa İttifaqı tərəfindən tanınması ilə bağlı müddəanın əksini tapmadığı iddia olunurdu.***

- BMT çərçivəsində ərazi bütövlüyünün, sərhədlərin tanınması ilə əlaqədar Avropa İttifaqı bir neçə dəfə qərar verib. Yəni digər postsovet ölkələrinə münasibətdə qurumun mövqeyi olub. Sərhədlərin dəyişməməsi Avropa İttifaqının əsas prinsiplərindən biridir. Münaqişələr nəticəsində hansısa ölkənin digər ölkədən torpaq qopartmaq istəyi Avropa prinsiplərinə ziddir. Elə Azərbaycan BMT-yə daxil olarkən də sərhədləri tanınıb. Avropa İttifaqı da Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bunu qiymətləndirir. Bu da bizim üçün çox zəruridir.

***- Azərbaycanın Avropa ailəsinə yaxınlaşmasına qarşı olan qüvvələrin hərəkətə keçməsi narahatlıq doğurmur ki?***

- Təbii ki, Azərbaycanın əleyhinə fəaliyyət göstərənlər var. Onlar ayrı-ayrı adlar altında vəziyyəti gərginləşdirməyə çalışırlar. Həm daxildə, həm xaricdə olan qüvvələr, dairələr var ki, Azərbaycanın inkişafını istəmirlər. Yaxud məsələləri siyasi baxımdan şişirdib qabardan qüvvələr var ki, onların da qarşısının alınması üçün addımlar atılır. Avropa İttifaqı da görür ki, bütün bunlar yalandan quraşdırılmış qarayaxma kampaniyasıdır. Çünki Azərbaycanda hər bir insanın hüquqları qorunur. Həmçinin bütün siyasi, sosial hüquqlar qorunur. Bu baxımdan Azərbaycanda ciddi şəkildə inkişaf, ictimai-siyasi sabitlik var. Lakin xarici ölkələrdə bu və ya digər adlar altında sığınacaq almış şəxslər müxtəlif məsələləri şişirdirlər. Erməni lobbisi tərəfindən maliyyələşən Avropa Parlamentinin üzvləri, yaxud sapı özümüzdən olan baltalar var ki, bu gün Azərbaycanın Avropa İttifaqı ilə yüksələn xətlə inkişafını istəmirlər. Bu baxımdan da siyasi məhbus, digər məsələləri ortaya atırlar.

**"Erməni lobbisi tərəfindən maliyyələşən Avropa Parlamentinin üzvləri, yaxud sapı özümüzdən olan baltalar var ki, bu gün Azərbaycanın Avropa İttifaqı ilə yüksələn xətlə inkişafını istəmirlər"**

***- Siyavuş bəy, belə bir həssas mərhələdə müxalifətin mitinqlərinə icazə verilməməsinin səbəbi nədir?***

- Hər dəfə Bakı Şəhər İcra Hakimiyyəti məlumatlandırır ki, bunlar götürdüyü öhdəlikləri yerinə yetirmir. Burada hər hansı təxribat ola bilər və təxribata görə sərbəst toplaşma ilə əlaqədar bəzi məsələləri qeyd edir. Lakin bunlar ardıcıl şəkildə əllərində bir fakt olsun deyə, bu məsələni qabardırlar. Müxtəlif bəhanələri ortaya atırlar ki, Avropa İttifaqı ilə imzalanacaq sənədə kölgə salsınlar.

***- Deməli, hakimiyyət təxribat ola biləcəyini nəzərə alıb mitinqlərə "yox" deyir?***

- Burada iki məsələ var. Əvvəla, belə versiya var ki, bunlar mitinq keçirəndə özləri təxribat törədəcəklər, sonra bunu iqtidarın üzərinə atacaqlar. Bu, ən ciddi məsələdir. Bunlar da hansı partiyanın tərəfdarı olmasına baxmayaraq, Azərbaycan vətəndaşlarıdır, Azərbaycan dövləti onların təhlükəsizliyini müdafiə edir. O baxımdan da dövlət maraqlıdır ki, onlar təhlükəsiz yaşasınlar, çalışsınlar, fəaliyyət göstərsinlər. İkincisi də mitinqi təşkil edənlər həmişə xəbərdarlığa imza atırlar. Sərbəst toplaşma haqqında qanunda var ki, milli, dini ayrı-seçkilik, dini, milli qarşıdurma, silahlı çevriliş, dövlət çevrilişinə cəhd çağırışlarına yol verilməsin. Lakin öhdəlik götürmələrinə baxmayaraq, onlar hər dəfə bu öhdəliyi pozurlar, qəsdən təxribat törədirlər ki, polis bu məsələlərə müdaxilə etsin. Lakin polis səbirlə davranır və imkan vermir ki, bunlar təxribatdan bəhrələnsinlər. Beləliklə, onlar öz öhdəliklərinə əməl etmədikləri üçün növbəti mitinqlərə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən icazə verilmir.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Deputat Şuşanın işğalı ilə bağlı maraqlı faktlar səsləndirdi

## Fərəc Quliyev: "Ayaz Mütəllibovun məqsədi özünü qorumaq üçün qvardiya yaratmaq idi"

**Şuşanın işğalından 27 il ötdü. Hər ilin bu günlərində strateji ərazimizin təcavüzə məruz qalması ilə bağlı müzakirələr açılır. Əsas ittihamlar o zaman iqtidarda olan Ayaz Mütəllibova və 1992-cü ilin bu günlərində müdafiə naziri olan Rəhim Qazıyevə yönəlikdir.**

Habelə 1992-ci ildə Şuşa və Laçının işğal olunduğu 8-17 may aralığında o zamankı Azərbaycan Xalq Cəbhəsinin A.Mütəllibov iqtidarını devirmək üçün hərəkətə keçməsini və 15 mayda buna nail olmasının hər iki bölgəmizin itirilməsinə səbəb olduğunu düşünənlər də var.

**O zamanlar AXC Ali Məclisinin üzvü olan deputat Fərəc Quliyev bu işğalın konkret şəxslərin ayağına bağlanmasının əleyhinədir:** "Şuşanın işğalı vaxtı Azərbaycan Xalq Cəbhəsi hakimiyyətdə olmadığı üçün məsuliyyət onun üzərində deyil. Çünki məsuliyyəti hakimiyyət daşıyır. O dönəmdə Xalq Cəbhəsi legitimliyi qazanmasına, uğurlu bir təşkilat olmasına baxmayaraq, məsuliyyəti o daşımırdı. Digər tərəfdən, çox prinsipal mövqeyim var və bunu heç zaman dəyişməmişəm, bundan sonra da dəyişməyəcəyəm. Bəzən Azərbaycanda Xocalı faciəsi, ərazilərimizin işğalı ilə bağlı düşməni qapıda axtarırlar. Bu çox yanlış bir yanaşmadır. Hətta bəziləri Xocalı faciəsi ilə əlaqədar birilərini ittiham etməklə məşğuldurlar. Bizim ərazilərimizi Rusiyanın köməkliyi ilə Ermənistan işğal edib, Şuşanı da həmçinin. Daxildə günah axtarmağa dəyməz. O dönəmdə biz məğlub olmuşuq. Doğrudur, ərazilərimizin müdafiəsində səhlənkarlıqlar olub. Amma Ayaz Mütəllibov iqtidarını bilə-bilə bu əraziləri verməkdə ittiham etməyi doğru saymıram. Bəli, o iqtidarın səhvləri oldu, amma bunu bilərəkdən etmədilər. Heç kim heç yeri bilə-bilə verməz yaxud torpağı satmaz. Kimə satıb, neçəyə satıb? Bunlar çox yanlış məsələlərdir. Hakimiyyətdə olan şəxs vətənpərvər olmasa belə, kreslosunun laxlaması üçün o addımı atmaz. Çağırış edirəm ki, belə məsələlərlə bağlı verilən bəyanatlarda, səslənən fikirlərdə diqqətli olmaq lazımdır. Azərbaycan imperiyadan qurtulurdu. İmperiya da bu məsələlərin qarşısını almaq üçün ərazilərimizi işğal etdi. 20 Yanvar hadisəsindən sonra SSRİ müdafiə naziri bura gəlib açıq bəyanat verib, Azərbaycanda gedən proseslərin ölkənin ayrılmasına doğru gedir, biz AXC-ni əzməyə gəlmişik ki, bu məsələlər baş verməsin. Onlar ölkəmizin müstəqillik qazanmaması üçün bunları edirdilər. Bu baxımdan Şuşanın işğalında ayrı-ayrı adamların hədəf götürülməsinin tərəfdarı deyiləm. Amma bu başqa məsələdir ki, o hakimiyyətin yanlışlıqları olub. O zaman AXC Məclisinin üzvü və döyüşən biri kimi azdan-çoxdan tanınırdım. Şuşa ilə bağlı deyə bilərəm ki, o zaman 17 snayper silahını ora aparıb rəhmətlik Ramiz Qəmbərova vermişdim. Milli ordunun yaradılması ilə bağlı parlamentdə çıxış edib ilk dəfə məsələ qaldırmışam. Ayaz Mütəllibov da o iclasda iştirak edirdi. O, yerindən durub mənə cavab verdi ki, bizdə qvardiya yaratmaq kifayət edir. Özünümüdafiə qüvvələri kimi milli orduya gərəyin olmadığını söylədi. Məqsədi özünü qorumaq üçün qvardiya yaratmaq idi. Çox məsuliyyətsiz davranırdı. Moskvadan daha çox şey gözləyirdi. Fikirləşirdi ki, onlar hərbi qüvvələrini verəcəklər, yaxud danışıqlarla məsələni həll edəcək. Bax buna səhlənkarlıq deyirlər. Daha hakimiyyətini saxlamaq, yaxud başqa məqsədlər üçün ərazilərin qəsdən verildiyi yöndə səslənən fikirlər cəfəngiyyatdır. O dönəmdə Azərbaycan dövlətinin zəif olduğundan Rusiyanın maşası olan Ermənistana uduzduğunu düşünürəm. Şuşa çox strateji yer idi və təəssüf edirəm ki, onu itirdik. O zaman iş doğru qurulmadı. Xalq Cəbhəsi qüvvələri ciddi şəkildə savaşırdı. Bizi qeyri-qanuni silahlı qüvvələr adlandırırdılar. Savaşsaq da, görəvimiz yox idi. Təsəvvür edin ki, əlimizdən silahları yığırdılar. Bizə "bandit" deyirdilər. Mən qanunsuz silahlı dəstələr yaratmaqda ittiham olunan şəxsəm. Məhkəmə zamanı dedim ki, əgər qanuni silahlı dəstələr fəaliyyət göstərməli idisə, o dönəmdə bu qüvvələr Rusiyanın 366-cı alayı idi və bu alay Xocalıda qırğın törətdi. Onların təbirincə desək, qanunsuz silahlı dəstələr yaratmışam, amma bunu düşünülmüş, şüurlu şəkildə etmişəm. Xalq Cəbhəsi şüurlu şəkildə qanunları pozsa da, işğalın qarşısını almaq üçün nələrsə edirdi. Amma o zamankı hakimiyyət bunu etmirdi, SSRİ-yə güvənirdi. Nəticədə belə oldu".



**F.Quliyev dedi ki, AXC hakimiyyətə gələndə faktiki Xankəndinin 7 kilometrliyinə qədər getdi:** "Ərazilərin böyük əksəriyyətini azad etdi. Bu şeyləri yaşamış şəxs olaraq deyirəm. Hücumlarımız da davam edirdi. Sadəcə, rusların əli ilə bizdə bəzi adamlar yanlışlıqlar etdilər. Ruslar AXC-nin hərbi sahədəki uğurlarını stopladılar. Rusiyanın müdafiə nazirinin müavini açıq şəkildə deyirdi ki, Kəlbəcərin işğalı ilə hakimiyyətdən getmədiniz, başqa bir şey quracağıq. Bunu da etdilər. AXC hakimiyyətinin əslində məğlub olması müharibədəki qələbələrinə görə idi. Əgər müharibədə qələbələr olmasaydı, bizim hökumət iqtidardan atılmayacaqdı. Şuşa və Laçının işğalı ilə əlaqədar ittiham olunmağımıza gəlincə, deyə bilərəm ki, bunlar tamamilə yalan söhbətlərdir. O zaman cəbhədə AXC-nin batalyonları döyüşürdü. Ramiz Qəmbərov AXC-ni quran kişilərdən biri idi. Şuşa batalyonunun komandiri və Şuşa Xalq Cəbhəsinin sədri idi. Orada şəhid oldu. Necə ola bilərdi ki, o özü ölsün, kimsə hakimiyyətdən getsin, bunun üçün də Şuşa verilsin. Çox məntiqsiz bir yanaşmadır. AXC-nin bir mövqeyi var idi ki, bəzi silahlı qüvvələr Qarabağdan istifadə edib, hakimiyyətə gəlmək istəyirlər, amma bizim məqsədimiz başqadır. Qarabağı azad etmək niyyətimizi tam şəkildə ortaya qoymuşduq. Bu baxımdan Xalq Cəbhəsinin ünvanına deyilən bütün ittihamları rədd edirəm".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (7270) 9 may 2019

# Elxan Süleymanov veteranlarla görüşdü - 2011 və 2019-cu illərin danışan fotoları



Veteranlarla 2011-ci ildə çəkilən foto


Veteranlarla 2019-cu ildə çəkilən foto


**Şamaxının millət vəkili Elxan Süleymanov mayın 7-də Şamaxıda Böyük Vətən müharibəsi veteranları ilə görüşüb.**

Görüşdə rayon Veteranlar Şurasının sədri Ağarza Bayramov, II Dünya müharibəsi iştirakçılarından Mirağa Əhlimanov, Dədəxan Niftalıyev, Cümşüd İbrahimov, Əlfalı Əsədov iştirak ediblər. Millət vəkili faşizm üzərində qələbə qazanılmasında müstəsna xidmətləri olmuş insanları təbrik edib.

Bu, son illər ərzində şamaxılı Böyük Vətən müharibəsi veteranları ilə Elxan Süleymanovun 9-cu görüşü olub. E.Süleymanov Şamaxının millət vəkili olduğu illərdə hər il veteranlarla görüşüb, onları təbrik və ziyarət edib.

Builki ziyarətdə kövrək bir mənzərə də diqqəti cəlb edir. Millət vəkilinin 2011-ci ildəki ilk görüşündən yadigar qalan foto ilə 2019-cu il mayın 7-də çəkilən fotonu müqayisə etdikdə, şərhə ehtiyac qalmır, bu fotolar sanki özü danışır...

Qeyd edək ki, Böyük Vətən müharibəsi illərində şamaxılılar cəbhəyə 12 549 nəfər əsgər yola salıblar. Müharibəyə gedən şamaxılılardan 1286 nəfəri qəhrəmancasına həlak olub, 4997 nəfər isə itkin düşüb. Hazırda Şamaxıda Böyük Vətən müharibəsinin 4 veteranı yaşayır.

❑ **M.MAHRIZLI, "Yeni Müsavat"**






# UNEC-də Heydər Əliyevə həsr olunan ilk TEDx konfransı keçirilib

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) ümummilli lider Heydər Əliyevə həsr edilən "Azərbaycan. Lider. Tərəqqi" mövzusunda TEDxUNEC konfransı keçirilib.**

Azərbaycanda Ulu öndərə həsr olunan ilk TEDx tədbirində dövlət qurumlarının rəhbər şəxsləri, millət vəkilləri, ziyalılar iştirak ediblər.

TEDx konfransında AMEA-nın Neft-Kimya Prosesləri İnstitutunun direktoru, professor Vaqif Abbasov "Liderlik fəlsəfəsi", Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı "Azərbaycanın lideri", Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc "Liderin Azərbaycanı" mövzularında məruzə ilə çıxış ediblər.

Vaqif Abbasov 6 min illik sivilizasiya tarixində böyük liderlər siyahısında Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin müstəsna rolunun olduğunu bildirib. Liderliyin 21 inkarolunmaz qanunundan söz açan məruzəçi liderlik keyfiyyətlərinin Ulu Öndər Heydər Əliyevdə bütünlüklə tamamlandığını vurğulayıb. Bu gün Azərbaycanın Cənubi Qafqazın ən güclü dövləti olduğunu, ölkəmizin bütün sahələrdə uğur qazandığını deyən natiq bu uğurların mayasında məhz Heydər Əliyevin dahi liderliyinin dayandığını bildirib. Liderliyin Varislik qanununa toxunan professor bildirib ki, Prezident İlham Əliyev öz uğurlu siyasi fəaliyyəti ilə Ümummilli liderin ən layiqli varisi olduğunu sübut edib.

Mübariz Qurbanlı Ulu öndər Heydər Əliyevi fəlsəfi və tarixi baxımdan böyük xəzinə adlandırıb. Hər bir dahi şəxsiyyətin zamanın tələblərinə görə tarixi xidmətlər göstərdiyinə diqqət çəkən M.Qurbanlı Heydər Əliyevin adının tarixə qurucu lider kimi yazıldığını bildirib. Ulu öndərin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəltdiyini, onun ömür yolunun isə Vətənə xidmətin parlaq nümunəsinə çevrildiyini deyib.

Zahid Oruc Ümummilli lider Heydər Əliyev barədə son fikri söyləməyin mümkünsüzlüyünü bildirərək, bu dahi şəxsiyyətə olan münasibətin tarixdə artıq qəlibləşdiyini qeyd edib. Azərbaycan xalqının müstəqil dövlət qurmağı tam olaraq Heydər Əliyevin liderliyi ilə qəbul etdiyini deyən natiq məhz bu dahi siyasətçinin sayəsində ölkəmizin bütün sahələrdə lider dövlətə çevrildiyini bildirib. Ulu öndərin liderlik keyfiyyətinin onun öz iradəsinin, hünərinin xalqla birgə verdiyi qərarlarda özünü göstərdiyini vurğulayan məruzəçi Heydər Əliyevin siyasi kursunun hər zaman yaşayacağına əminliyini ifadə edib.

❑ **Musavat.com**

# 9 may qələbəsində payı olan canlı tarixlər...

## Onlardan 400 nəfərə yaxını yaşayır və dövlət qayğısı ilə əhatə olunub

**Bu gün Böyük Vətən müharibəsində faşizm üzərində qələbənin 74-cü ildönümüdür. 5 illik müharibə mayın 9-da Sovet İttifaqının qələbəsi ilə başa çatmışdı. 1945-ci il mayın 8-dən 9-na keçən gecə alman generalı Vilhelm Keytel danışıqsız təslim aktını imzalayıb, bununla da Böyük Vətən müharibəsi faşizm üzərində qələbə ilə yekunlaşıb. Qələbə günü bu gün də postsovet ölkələri və İkinci Dünya müharibəsində iştirak etmiş digər dövlətlərdə qeyd olunur.**



Məlum olduğu kimi, Sovet İttifaqının müharibədə qələbə çalmasında Azərbaycandan gedən yüzminlərlə əsgər və hərbçilərin, o cümlədən Bakı neftinin böyük payı olub. Ölkəmiz 300 min nəfərdən artıq itki verib. 1941-1945-ci illərdə Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə çox böyük qəhrəmanlıq göstərib. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılıb. 5 il ərzində Azərbaycandan 600 mindən azərbaycanlı qadın və kişi cəbhəyə yollanıb. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçib. Həmvətənlərimizin 130 nəfərdən çoxu Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. Azərbaycandan olan 170 min əsgər və zabit SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olunub. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları bu müharibədəki qəhrəmanlığı ilə adını tarixə yazıb.

Bu müddətdə Bakı döyüşən ordu üçün silah-sursat cəbbəxanasına çevrilmişdi. Neftçilərimizin fədakarlığı sayəsində Bakı cəbhəni və sənayeni yanacaqla təmin edirdi. Bu illərdə Azərbaycan tarixində neft hasilatı üzrə rekord göstərici əldə edilmişdi. Bakı nefti faşizm üzərində qələbənin əsas amillərindən biri olmuşdu. O cümlədən akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini alınmasının yeni texnologiyası yaradılmışdı.

Hər il 9 may Qələbə günü ərəfəsində dövlət başçısı və ayrı-ayrı qurumlar səviyyəsində Böyük Vətən müharibəsi iştirakçıları ilə görüşlər keçirilir, onlara dövlətin diqqət və qayğısı əsirgənmir.

**İkinci Dünya müharibəsi iştirakçılarının sosial təminatı sahəsində görülən işlərlə bağlı "Yeni Müsavat"a danışan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov bildirdi ki, hazırda onların sayı 400 nəfərə yaxındır:** "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarının sosial müdafiəsinin gücləndilməsi istiqamətində ötən dövrdə ölkəmizdə mühüm addımlar atılıb. Azərbaycanda hazırda 400 nəfərə yaxın İkinci Dünya müharibəsi iştirakçısı var, onlardan 250 nəfəri İkinci Dünya müharibəsi əlilləridir. Bu kateqoriydan olan vətəndaşların sosial təminatı diqqətdə saxlanılır".

**F.Talıbovun sözlərinə görə, dövlət başçısının 15 aprel tarixli fərmanı ilə baş tutan artımlar İkinci Dünya müharibəsi iştirakçılarına da şamil edilib:** "Prezident cənab İlham Əliyevin müvafiq fərman və sərəncamı ilə 1941-1945-ci illər İkinci Dünya müharibəsi əlilləri və digər iştirakçıları Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdləri ilə təmin edilirlər və ötən dövrdə bu təqaüdlərin dəfələrlə artırılması təmin edilib. Dövlət başçısının 15 aprel 2019-cu il tarixli Fərmanına əsasən, müharibə əlillərinin, o cümlədən İkinci Dünya müharibəsi əlillərinin də təqaüdləri aprelin 1-dən ciddi şəkildə artırılıb. Belə ki, onlardan I dərəcə əlilliyi olanlar üçün təqaüdün məbləği 250 manata, II dərəcə əlilliyi olanlar üçün 230 manata, III dərəcə əlilliyi olanlar üçün 210 manata çatdırılıb. I dərəcə əlilliyi olanlara qulluq edənlər üçün isə 15 aprel 2019-cu il tarixli digər fərmanla 50 manat aylıq təqaüd təsis edilib. İkinci Dünya müharibəsinin digər iştirakçıları üçün Prezidentin aylıq təqaüdü 15 aprel 2019-cu il tarixli sərəncamla 150 manata çatdırılıb. Həmin təqaüdlə bərabər, İkinci Dünya müharibəsi veteranları əmək pensiyası ilə təmin edilirlər. Onların əmək pensiyası təyin edilərkən əlavə də hesablanıb".

Nazirlik rəsmisi bildirdi ki, hər il Qələbə günü ərəfəsində dövlət başçısının müvafiq sərəncamı ilə İkinci Dünya müharibəsi iştirakçıları, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslər və b. birdəfəlik maddi yardımla təmin olunurlar. 23 aprel 2019-cu il tarixli sərəncamla da 400-ə yaxın İkinci Dünya müharibəsi iştirakçısının hər birinə 1000 manat, qalanlarına, yeni sərəncamda nəzərdə tutulan digər kateqoriyadan olanların - 8,9 minə yaxın şəxsin hər birinə 500 manat məbləğində birdəfəlik maddi yardım verilib.

**F.Talıbovun sözlərinə görə, ötən dövrdə həmçinin İkinci Dünya müharibəsi əlillərinin mənzil və minik avtomobili ilə təminatı da həyata keçirilib:** "Belə ki, bu vaxta qədər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 102 nəfər İkinci Dünya müharibəsi əlilinə mənzil, bu təbəqədən olan 1117 nəfər şəxsə minik avtomobili təqdim olunub. İkinci Dünya müharibəsi iştirakçılarının sosial müdafiəsi sahəsində və digər sahələrdə də məqsədyönlü tədbirlər görülür, onların bərpa müalicəsi, sanator-kurort yollayışları, ehtiyac duyduqları zaman evlərində sosial xidmətlərlə təminatı və digər istiqamətlərdə işlər aparılır".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (7270) 9 may 2019

# Mehriban Əliyeva gənclərin səsinə səs verdi: tarixi bina sökülmədi

**Bəxtiyar Sadıqov:** "Belə təmaslar həm islahatların sürət və keyfiyyətinə təsir edəcək, həm də vətəndaş məmnunluğunu daha da artıracaq"

**Dilavər Əzimli:** "Mehriban Əliyeva məsələyə qarışdı və düşünülən qalmaqal planı pozulmuş oldu"





**Bir neçə gün idi Bakının Nəsimi rayonu, Süleyman Rüstəm küçəsində yerləşən tarixi binanın söküləcəyi ilə bağlı sosial şəbəkələrdə məlumatlar dolaşırdı. İnsanlar tarixi binanın sökülməsinə qarşı çıxıb, bu binanın qorunmalı olduğunu bildirirdilər. Binanın tarixinə gəlincə isə sənətşünaslar tikilinin 1913-cü ildə molokanların dua evi kimi tikildiyini söyləyirlər.**

Sovet dönəmində burada Rabitə Nazirliyinin Radio Evi yerləşib. Postsovet dövründə bina boş qalıb və faktiki olaraq sahibsiz olub. Son vaxtlar "Salaam Cinema"nın entuziastları oranı sahmana salaraq kino nümayiş etdirirdilər. Məhz həmin gənclər binanın mühafizəsinə qalxıblar. Orada çalışan gənclər məlumat yaymışdılar ki, binanı mayın 2-də sökməyə cəhd ediblər. Məlumata görə, bina 2018-ci ildə özəlləşdirilib. Sahibkar isə hazırda binada icarə yer götürüb çalışan gənclərə 15 iyuna qədər oranı tərk etməyi tapşırıb.

Bu kimi məlumatlar yuxarıda da qeyd etdiyimiz kimi sosial şəbəkədə qalmaqal yaratmışdı. Lakin mayın 7-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva gənclərə dəstək çıxıb, özünün instaqram səhifəsində Süleyman Rüstəmov küçəsində yerləşən tarixi bina ətrafında yaranan qalmaqala reaksiya verdi.

**Mehriban Əliyeva binanın dövlətin nəzarətində olduğunu bildirdi. Birinci vitse-prezident qeyd etdi ki, Azərbaycanın və onun paytaxtı Bakının memarlıq və tarixi irsinin qorunub saxlanılması hər birimiz üçün prioritet məsələdir:** "Onun həlli üçün həm vətəndaş mövqeyi, həm insanların öz doğma şəhərinin simasına biganə yanaşmaması, həm də fəal ictimai nəzarət gərəkdir. Bakının Süleyman Rüstəm küçəsindəki qədim bina ətrafında yaranmış vəziyyət dövlətin nəzarəti altındadır. Ölkəmizin mədəni irsinə xələl gətirilməməsi üçün bütün lazımi tədbirlər görülür, axı unikal və müxtəlif memarlıq abidələri bizim ümumi sərvətimizdir. Ölkəmizi, şəhərimizi doğma evimiz - ümumi evimiz kimi qorumalıyıq".

Mehriban Əliyevanın bu addımı həm gənclər, həm də ölkə ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilib.

Rəylərə keçməzdən öncə məlumat verək ki, molokanlar pravoslav kilsəsindən ayrılan, özlərini ruhani xristian adlandıran, daha çox əkinçiliklə məşğul olan ruslardır. Onların əsl adı "ikonoklast"dır. Molokan ifadəsinin yaranma tarixi ilə bağlı müxtəlif fərziyyələr var. Bəziləri belə hesab edir ki, onları Meritapol qəzasının "Moloçnı" kəndinə sürgün elədiklərinə görə elə adlandırıblar.

Digərləri düşünür ki, molokanlar pravoslav kilsəsinin inancına qarşı çıxaraq, ibadət zamanı çaxır deyil, süd içirlər. Rus dilində də "molokon" "süd içən" deməkdir. Bəziləri isə belə hesab edir ki, molokanlar ruslardan sayca az olduğuna görə, onların adı "malo", yeni "az" sözündən yaranıb. Molokanların başqa bir özəlliyi onların müsəlman və yəhudilər kimi donuz əti yeməməsidir. Molokanlar donuz əti və qabıqlı dəniz heyvanlarını haram sayır, spirti içki içmirlər. Bu barədə araşdırma aparan professor Orxan Türkdoğan molokanlığı "yəhudi və xristian inanclarının sintezi" kimi qiymətləndirib.

Mənbələrdə göstərilir ki, Azərbaycana molokanların köçürülməsi 1832-ci ilə təsadüf edir. Molokanların köçürüldüyü ərazilərin sırasına müsəlmanların üstünlük təşkil etdiyi İrəvan və Borçalı bölgələri də daxil idi. Bu gün İsmayıllıdakı İvanovka, Gədəbəydəki Saratovka, Slavyanka, İvanovka, Masallıdakı Kalinovka kəndlərində onlara rast gəlmək mümkündür.

**"Yeni Müsavat"a danışan deputat Bəxtiyar Sadıqov bildirib ki, İlham Əliyev növbəti dəfə prezident seçildikdən sonra Azərbaycanda çox dərin islahatlar keçirilir:** "Çox şadam ki, bu islahatlar nəinki iqtisadiyyat və siyasətə, eyni zamanda rəhbərliklə xalq arasındakı münasibətlərə də təsir edir. Biz cənab prezident İlham Əliyevin xalqla təmasının yeni formalarını görürük. Doğrudur, bu görüşlər əvvəlkilər kimi səmimidir, insanlar yenə də sərbəstdirlər, fikirlərini ifadə edə bilirlər. Ancaq bundan əlavə, görüşlərdə yeni çalarlar da var. Bu, bizi çox sevindirir. Bəzən gizli deyil ki, hər hansı bir məsələnin həllində bizim yüksək çinli dövlət məmurları qəti qərar verə bilmirlər. Onlar gözləyib öyrənmək istəyirlər ki, dövlət başçısının məsələ ilə bağlı mövqeyi necədir. Belə ərəfədə məsələnin həlli yubanır və insanlar narazı qalırlar. Mehriban xanımın artıq əvvəlkilərə nisbətən daha fəal şəkildə bu cür məsələlərə müdaxiləsi çox sevindiricidir. Diqqət yetirsək görərik ki, artıq cənab prezidentin tapşırığı ilə Prezident Administrasiyasındakı məmurların bir çoxu yerlərə gedib, vətəndaşları qəbul edirlər. İndiyə qədər dünyanın heç bir yerində olmayan praktikadır ki, nazirlər tərtib olunmuş qrafik əsasında hər ay müxtəlif bölgələrdə vətəndaşları qəbul edirlər. Bu, çox gözəl təcrübədir. Çünki vətəndaş Bakıya gəlib, nazirin qəbuluna asanlıqla girə bilmirdi. İndi isə nazir özü vətəndaşın yanına gedib, onun problemini dinləyir. Artıq yerlərə gedən məmurların da sayı artıb. Bu da eyni zamanda Azərbaycan iqtidarının o siyasətindən xəbər verir ki, xalqın problemi operativ şəkildə dinlənilib, həll edilsin. Sonuncu olaraq, binanın sökülməsi ilə bağlı yaranmış vəziyyət və Mehriban xanımın hadisəyə münasibəti yuxarıda sadaladığım məqamlarla bağlıdır. Düşünürəm ki, belə təmaslar getdikcə daha da sıx olacaq. Bu isə həm islahatların sürət və keyfiyyətinə təsir edəcək, həm də vətəndaş məmnunluğunu daha da artıracaq".

**Tarixçi Dilavər Əzimli "Yeni Müsavat"a bildirib ki, hadisəni çox yüksək qiymətləndirir:** "Ölkədə ən çox işləyən, xalqın qeydinə qalan prezident və birinci vitse-prezidentdir. Bəziləri isə sanki müəyyən xarici qüvvələrlə iş birliyinə gedib, ölkədə fitnə-fəsad salmaq istəyirlər. Əslində tarixi binaya hücum da düşünürəm ki, həmin siyasətin davamıdır. Mehriban xanım vaxtında müdaxilə edərək həm tarixi abidəni xilas etdi, həm də fitnə-fəsadın qarşısını aldı. Bu, artıq neçənci hadisədir. Bir neçə gün öncə İçərişəhərdə də oxşar hadisə baş verdi. Orada da xanım Mehriban Əliyeva məsələyə qarışdı və düşünülən qalmaqal planı pozulmuş oldu. Eyni zamanda bütün bunların fonunda 130 ağacın bir gecəyə qırılmasından da danışmaq olar. Belə məqamlarda artıq cəmiyyətin özü də fəallaşmalıdır və demək olar ki, fəallaşır. Hər şeyi prezidentdən gözləmək olmaz. Bu cür tarixinə qarşı gedənlərlə bağlı ciddi ölçü götürülməlidir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Omi ar unda, gürcü qardaşlar...



**Xalid KAZIMLI**

**Adamın durduğu yerdə savaşa girməsi an məsələsidir. Bir ehtiyatsız söz, çılğın hərəkət bəs edir ki, insan öz 20-30 illik dostuyla qatı düşmən olsun. Ehtiraslar soyuyandan sonra isə barışığa illər lazım olur.**

Hətta barışıq heç zaman olmaya da bilər, aradakı düşmənçilik nəsildən-nəslə keçər.

Dövlətlər arasındakı münasibət ailələr, nəsillər, qəbilələr arasındakı münasibətə bənzəməz, ancaq düşmənçiliyin bir anda başlaması, barışığın on illərlə əldə olunmaması xüsusunda durum eyni cürdür.

Dövlətlər də asanlıqla savaşa girə bilər, sonra uzun müddət barışa bilməzlər.

Söhbətin mövzusu Gürcüstanla sərhədimizdə yerləşən Keşikçidağdakı monastır məsələsidir. Nifaq almasına çevrilən bu monastırla bağlı ziddiyyət aydın səmada çaxan şimşək effekti doğurub.

Hazırda bu məsələyə gürcü tərəfdən aqressiv münasibət var: siyasətçilər, millətçi qruplar o məkana gəlir, müxtəlif provokativ tədbirlər keçirirlər, sərhədi qoruyan əsgərlərimizi təxribata çəkirlər, millətimizin ünvanına artıq-əskik sözlər deyirlər.

Bizimkilər isə hələlik səbr və təmkin nümayiş etdirirlər və düz olan da budur.

İndilikdə araşdırmaq, incələmək lazımdır, görək, bu aksiyaların arxasında kimlər durur, bu iddialar Gürcüstan dövlətinin rəsmi mövqeyidirmi?

Əlbəttə, məsələyə xalq prizmasından yanaşsaq, futbol azarkeşliyində olduğu kimi, Keşikçidağ məsələsində də gürcü xalqı monastırın da, onun yerləşdiyi ərazinin də, hətta ona bitişik mahalların da "əzəli gürcü torpağı" olduğunu iddia və elan edəcək.

Təbii ki, biz də borclu qalmayacağıq və Borçalıdan girib Batumdan çıxacağıq.

Ancaq bu kimi qızışqan söhbətlər məhəllələrarası qovğalarda olur, əsəb partlaması bir anda baş verir, çılğınlaşmış insanlar tez-tələsik yaraq-əsləhə qurşanıb dava meydanına cumurlar, qan su yerinə axır.

Dövlətlər, onları idarə edənlər bu cür emosional, düşünülməmiş, avantürist qərarlar qəbul edə bilməzlər. Onlar üz-üzə oturub danışmalıdırlar, fikir ayrılığının inkişaf edərək münaqişəyə, müharibəyə çevrilməsinin hansı fəsadlar doğura biləcəyini hesablamalıdırlar.

Gürcüstan özünün şimalından və qərbindən təcavüzə məruz qalmış, ərazisini itirmiş dövlətdir. Bu ölkənin daha bir yaralı yeri Cavaxetiyadır. Ermənilər bu mahala iddia edir, əlverişli fürsət gözləyir. Üstəlik, Acarıstan var. Türkiyə ilə həmsərhəd olan və dar ayaqda bu dövlətdən dost münasibəti görə biləcək Acarıstan bir gün başqa yol tuta, başı çoxsaylı münaqişələrə qarışmış Gürcüstana qarşı separatçılıq edə bilər. Bir də soydaşlarımızın kompakt yaşadığı Borçalı mahalı var. Gürcü siyasilər bütün bu amilləri, eləcə də Rusiya ilə düşmənçilik büsatında olduqlarını nəzərə alanda belə bir qədim monastıra görə yeni münaqişəyə cəlb olunmağın nə qədər təhlükəli avantüra olduğunu bilməlidirlər və güman ki, bilirlər.

Biz də eyni zamanda 30 ildən artıqdır davam edən Qarabağ münaqişəsini həll edib bir tərəfə çıxarmamış dost münasibətində olduğumuz ölkə ilə düşmənçiliyə başlaya bilmərik. Çünki Gürcüstan bizim üçün qapıdır, Türkiyə ilə birbaşa əlaqə saxlamağımız üçün ən etibarlı keçidimizdir. Dəmiryol xəttimiz, "torpaq yolumuz" bu ölkədən keçir, qazımızı, neftimizi dünyaya Gürcüstan üzərindən çıxarırıq. Lokal bir konflikt illərlə fəxr etdiyimiz beynəlxalq layihələrin süqutuna gətirib çıxarar, ermənilər kimi təcrid olunmuş vəziyyətə düşə bilərik.

Sual çıxacaq: bəs avantüra təşəbbüskarı onlardırsa, düşmənçiliyi onlar körükləyirsə, onda necə olsun?

Hər halda, biz təmkinli olmalıyıq, öz yanımızdan emosiyaya qapılmamalı, geri dönüşü olmayan hərəkətlərə yol verməməliyik, mənasız iddialar səsləndirməməliyik. Keşikçidağ həndəvərində bir gürcü bizim gülləyə tuş gəlsə, yaxud biz hansısa təxribatçı gürcünün gülləsinə hədəf olsaq, ortalıq qarışa, düzən pozula bilər.

Belə sərhədyanı konfliktləri həll etmək üçün dövlət və onun aidiyyatı qurumları var. Onlar nə lazımdırsa, edəcəklər. Heç bir dövlət strukturu, heç bir dövlət rəsmisi hansısa dağı, təpəni çöldən tapmayıb ki, kiməsə güzəştə getsin və ya peşkəş etsin.

Bu, bir kampaniyadır, mövsümi təxribatdır, yəqin ki, bir azdan Keşikçidağdakı monastır ətrafındakı ajiotaj səngiyəcək, sönüb gedəcək. Yox, əksinə olacaqsa, məsələ yoğunlayacaqsa, necə deyərlər, ağa durur, ağacan durur.

Son günlər populyarlaşan "gürcülər ermənilərdən də pisdir" fikrinə gəlincə isə, birmənalı demək olar: elə deyil... Şuşa başda olmaqla ərazimizin 20 faizini işğal edən və Xocalı genosidini törədənlərlə monastır ətrafında əl-ələ tutanlar arasında bərabərlik işarəsi qoymaq olmaz.

***P.S.*** *Başlığa verilmiş gürcücə sözlərin mənası: "Savaş olmasın".*

# Partiyalar iftar süfrəsi açacaqmı?

## Siyasi təşkilatlar orucluğu müxtəlif məkanlarda keçirəcək

**Hər il Ramazan bayramında əksər siyasi partiyalarda iftar süfrələri açılır. Bu bayram süfrəsi açılması Türkiyədə daha çox formalaşmış ənənədir. Orada partiyalarda, müxtəlif rəsmi qurumlarda iftar süfrələri təşkil edilir.**



Amma maraqlıdır ki, İranın sənaye, mədən və ticarət naziri Rza Rəhmani nazirliyin tabeliyindəki şirkətlər, idarələr və müəssisələr tərəfindən istənilən iftar mərasimlərinin keçirilməsini qadağan edib. Nazir qadağanın səbəbini maliyyə ehtiyatlarında qənaət və qeyri-zəruri xərclərin qarşısının alınması ilə əlaqələndirib.

Bizdə isə bəzi partiyalar iftar süfrəsi açmağı ənənəyə çeviriblər. Partiyalarla əlaqə saxlayaraq iftar məclisləri təşkil edib-etməyəcəklərini soruşduq.

**AĞ Partiya başqanının müavini Əhəd Məmmədli** "Yeni Müsavat"a bildirdi ki, rəhbərlik və üzvlərin əksəriyyəti oruc tutur: "Üzvlərimizlə bir-birimizə iftar süfrəsi veririk. Bu ənənə davam edəcək".

**"Gələcək Azərbaycan" Partiyasının sədri Ağasif Şakiroğlu qeyd etdi ki, partiya fəaliyyət göstərdiyi mərkəzi qərargahından təxminən bir ay bundan öncə çıxarılıb:** "Ötən il qərargahımız olan zaman partiya üzvlərinə iftar süfrəsi verilmişdi. Bu il qərargahsız qaldığımızdan və problemi hələ çözə bilmədiyimizdən bu məsələ sual altındadır. Hər hansı bir restoranda da bu işi təşkil etmək imkanı olduqca aşağıdır. Bu səbəbdən düşünürəm ki, hansısa partiya fəalımızın geniş ev imkanı olarsa, yalnız orada təşkil edə bilərik. Amma bu da hazırda dəqiq deyil".

**Klassik Xalq Cəbhəsi Partiyasının İdarə Heyəti üzvü Xəzər Teyyublu** partiyada oruc tutanların olduğunu qeyd etdi. O, iftar süfrəsi təşkil olunacağı barədə hələlik qərar verilmədiyini açıqladı.

**Vətəndaş Həmrəyliyi Partiyasının şöbə müdiri Səlahəddin Əsgər** Ramazan ayının təzə başladığını bildirdi: "Partiya rəhbərliyində olan bir sıra şəxslər iftar süfrələri təşkil edirlər, rayon təşkilat sədrləri də edirlər. Bu il də yəqin ənənələrinə sadiq olarlar".

**ADP sədrinin müavini Həsrət Rüstəmov** bildirdi ki, Ramazanda həmişə partiya sədri oruc saxlayan fəalları üçün iftar təşkil edir: "Yəqin bu il də belə olacaq. Hələ ay təzə başladığı üçün dəqiq bir məlumatım yoxdur".

Qeyd edək ki, Müsavat Partiyası, AXCP və digər partiyalarda da iftar süfrəsi açılacaq.

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**



# Azərbaycanda internet ucuzlaşacaq

**Azərbaycanın magistral operatoru olan "Delta Telecom" MMM may ayının 10-dan provayderlərə təmin olunan internetin qiymətində təxminən 70%-ə qədər endirim təklif edəcək.**

Şirkətdən ONA-ya verilən məlumata görə, endirim qiymətlərindən istifadə etmək istəyən provayderlər satdığı internetin keyfiyyətinin yüksək səviyyədə olması və son istifadəçiyə qiymətlərdə endirim etməsi öhdəliyini götürməlidir.

Maraqlı olan provayderlər endirim paketi haqqında ətraflı məlumat almaq üçün müəssisəyə müraciət edə bilərlər.





**Tanınmış politoloq Elxan Şahinoğlunun rəhbərlik etdiyi "Atlas" Araşdırmalar Mərkəzi Heydər Əliyev Fondunun yaranmasının 15-ci ildönümünə həsr olunan "Heydər Əliyev Fondu 15-ci ilində..." adlı məqalə hazırlayıb.**

# Heydər Əliyev Fondunun 15 ili

## "Atlas" Araşdırmalar Mərkəzi: "Heydər Əliyev Fondunu bənzər təşkilatlardan fərqləndirən odur ki, fəaliyyəti yalnız bir sahəni əhatə etmir"







**"Heydər Əliyev Fondu Azərbaycanın xarici və milli təhlükəsizlik siyasətində önəmli rola malikdir"**

**"Yeni Müsavat"a göndərilən yazıda fondun fəaliyyəti ilə bağlı təhlil verilir:** "Heydər Əliyev Fondunun icraçı direktoru və Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov "Şöhrət" ordeni ilə təltif olundu. Fondun rəhbəri, birinci vitse-prezident Mehriban Əliyevanın bir neçə köməkçisi olsa da, Anar Ələkbərovun səlahiyyət və məsuliyyət dairəsi genişdir. İcraçı direktor fondun işinə bilavasitə rəhbərliyi, proqram və tədbirlərə nəzarəti həyata keçirir. Fondun Ekspert Şurası da var. Ekspert Şurası qəbul olunan qərarların səmərəliliyini və effektivliyini təmin edir. Müxtəlif ixtisaslı ekspertlərdən təşkil olunmuş Ekspert Şurasının vəzifəsi müvafiq rəyləri, hesabatları və məruzələri hazırlayıb prezidentə təqdim etməkdən ibarətdir.

Heydər Əliyev Fondu 15 ildə ölkənin sosial həyatında əsas təşkilata çevrilib. İnsanlar bu təşkilata ümid yeri kimi baxırlar. Yardım və dəstək məqsədilə müraciətlərin və məktubların mütləq əksəriyyəti məhz fonda yönəlir. Bu da onunla əlaqəlidir ki, fond 15 ildə insanların problemlərinin həllində mühüm rol oynayıb".

**Yazıda daha sonra deyilir ki, oxşar təşkilatlar dünyanın müxtəlif ölkələrində var.** "Heydər Əliyev Fondunu bənzər təşkilatlardan fərqləndirən odur ki, fondun fəaliyyəti yalnız bir sahəni əhatə etmir. Bu sıraya sosial problemlərin həllindən, xəstəxana, məktəb və uşaq bağçalarının tikintisindən tutmuş, müxtəlif səpgili layihələrin tətbiqinə və reallaşdırılmasına qədər çalışmaları göstərmək olar. Azərbaycan torpaqlarının işğalının və Xocalı soyqırımının dünyada tanıdılması işi də Heydər Əliyev Fondunun əsas fəaliyyət istiqamətlərindən biridir: Təsadüfi deyil ki, son illərdə 10-larla ölkənin parlamentində Xocalı soyqırımı haqqında qətnamələr qəbul edilib. Xocalı soyqırımının müxtəlif ölkələrin parlamentlərində tanıdılması və "Xocalıya ədalət" aksiyalarının keçirilməsi erməni lobbisinin çalışmalarına zərbədir və dünya görür ki, özünü "məzlum millət" kimi göstərmək istəyənlər Azərbaycanda əsl soyqırım törədiblər", – deyə, məqalədə bildirilir.

**"Atlas" Araşdırmalar Mərkəzi Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə həyata keçirdiyi sosial və humanitar layihələrin iki əsas hədəfinin də olduğunu vurğulayır:** "Birinci hədəf məktəb və xəstəxanaların tikintisi, dərmanların və zəruri yardımların çatdırılması vasitəsilə ağır vəziyyətdə və köməyə ehtiyacı olan insanlara yardımdırsa, ikinci hədəf Azərbaycanla tərəfdaş münasibətlərdə olan ölkələrə dost əli uzatmaq və bu yolla ikitərəfli əlaqələri daha da üst səviyyəyə qaldırmaqdır. Bununla Heydər Əliyev Fondu həm də Azərbaycanın xarici və milli təhlükəsizlik siyasətində önəmli rola malik olduğunu göstərir. Məsələn, Heydər Əliyev Fondunun dost və qardaş Pakistanda həyata keçirdiyi humanitar aksiyalar, tikdiyi məktəb və xəstəxanalar iki ölkə arasındakı əlaqələrin daha üst səviyyəyə qalxmasına xidmət edir. Pakistan Azərbaycanın strateji müttəfiqidir, İslamabad Dağlıq Qarabağ məsələsində birmənalı şəkildə Azərbaycanı dəstəkləyir. Ona görə də Heydər Əliyev Fondunun Pakistanın sosial problemlərinin həllində rol oynaması həm də Azərbaycanın qardaş dövlətin siyasətinə minnətdarlıq əhəmiyyəti daşıyır".

**Yazıda həmçinin qeyd edilir ki, Heydər Əliyev Fondunun Azərbaycanda həyata keçirdiyi sosial və humanitar layihələr faktiki bu işə məsul olan nazirliklərin işinə də mühüm dəstək, problemlərin həllində məsuliyyətin bölüşdürülməsidir:** "Məsələn, Heydər Əliyev Fondu nəzdində "Regional İnkişaf" İctimai Birliyi fəaliyyət göstərir. Fondun əsas qollarından birinə çevrilən birliyin məqsədi bölgələrin əsas problemlərinin öyrənilməsi və onların həllinin sürətləndirilməsidir.

Fond və birinci vitse-prezident son illərdə cəmiyyətdən gələn siqnallara da xüsusi diqqət göstərir. Bu mənada sosial şəbəkələrin önəmli rolu var. Sosial şəbəkələrdə sosial və humanitar mövzuda narazılıq yaradan və böyük diskussiyalara səbəb olan mövzular fondun diqqətindən yayınmır, onlara reaksiya verilir. Məsələn, İçərişəhərdəki tikinti və təmir işləri ilə bağlı sosial şəbəkələrdə geniş müzakirələr açıldığında birinci vitse-prezident İçərişəhərə gəldi, təmir-tikinti işləri ilə yerindəcə tanış oldu və məmurlara tarixi abidələrin qorunması tapşırığını verdi. Və ya şəhərin qədim tikililərindən biri-"Salaam Cinema Baku"nun yerləşdiyi bina ilə bağlı gənclər arasında geniş diskussiya açıldığında və mərkəzin işıqları kəsildikdə birinci vitse-prezident dərhal olaya reaksiya verdi və yazdığı statusda tarixi binaların qorunması vacibliyini səsləndirdi. Mehriban Əliyevanın bu cür reaksiyalarının iki mənası var. Birincisi, birinci vitse-prezident bununla göstərir ki, cəmiyyəti narahat edən mövzulara həssasdır, ikincisi, haqqında danışılan yerlərə şəxsən baxışların keçirilməsi və verilən açıqlamalar məmurlara da bir növ xəbərdarlıq mahiyyəti daşıyır ki, atdıqları addımlar qanunlara zidd olmasın və məmurlar insanların narahatlıqlarını diqqətə alsınlar".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# “25 may mitinqi AXH-nin yox, İsgəndər Həmidovun mitinqidir”

**İsgəndər Həmidov “Yeni Müsavat”a müsahibəsində Azərbaycan Xalq Hərəkatının mayın 25-nə Yasamal rayonundakı “Məhsul” stadionuna mitinq təyin etdiyini məlumat verib. Mitinqə şərait yaradılması üçün Bakı Şəhər İcra Hakimiyyətinə məktub da göndərildiyini açıqlayıb.**

## Tural Abbaslı: “Bəzi insanların yığışıb toplantı keçirməsi hələ o demək deyil ki, bu, Azərbaycan Xalq Hərəkatının Məclisinin iclasıdır”

İsgəndər Həmidov müxalif siyasi qüvvələrin birlikdə mitinq keçirməsinin daha məqsədəuyğun olduğunu da deyib.

Bəs AXH-dəki əks tərəf 25 may mitinqinə qatılacaqmı?

**AXH-dəki tərəflərdən birinin İdarə Heyətinin üzvü, AĞ Partiyanın sədri Tural Abbaslı** “Yeni Müsavat”a bildirdi ki, o, hələlik qurumun İH-nin hansısa iclasında mitinq barədə qərar verildiyini xatırlamır. 25 maya təyin olunan mitinqi isə İsgəndər Həmidovun bir vətəndaş olaraq təyin etdiyi mitinq kimi qəbul edir: “Mənim təmsil olunduğum Azərbaycan Xalq Hərəkatının İdarə Heyəti 25 maya və ya başqa günə hələ mitinq təyin etməyib. Düşünürəm ki, hər bir vətəndaş kimi İsgəndər Həmidovun da sərbəst toplaşmaq azadlığından istifadə hüququ var və görünür, o, həmin hüququndan istifadə edərək mayın 25-nə mitinq təyin eləyib. 25 may mitinqini AXH-nin yox, İsgəndər Həmidovun mitinqi hesab etmək daha doğru olar. Odur ki, mən bu mitinqə Azərbaycan Xalq Hərəkatının mitinqi deməyi doğru hesab etmirəm. Əgər Azərbaycan Xalq Hərəkatının mitinq barədə qərarı yoxdursa, bizim İdarə Heyəti üzvü kimi o mitinqdə iştirakımız təbii ki, mümkün deyil”.


Tural Abbaslı

**“25 may tarixinə mitinqi İsgəndər Həmidov yox, Azərbaycan Xalq Hərəkatı Məclisinin təyin etdiyi bildirilir. Bu vəziyyət sizin qərarınıza təsir edə bilərmi” sualına isə Tural Abbaslı belə cavab verdi:** “Mən Azərbaycan Xalq Hərəkatının Məclisinin keçirildiyini xatırlamıram. AXH-nin Məclisi keçirilib ki, mitinq barədə də qərar verilsin? Məclis keçirilsəydi biz də iştirak etmiş olardıq. Bəzi insanların yığışıb toplantı keçirməsi hələ o demək deyil ki, bu, Azərbaycan Xalq Hərəkatının Məclisinin iclasıdır”.

**“Ümumiyyətlə, bir müddət müxalifətin mitinq məsələsində taktikanı dəyişməsinə ehtiyac varmı? Mitinqlərə Bakı Şəhər İcra Hakimiyyəti onsuz da icazə vermir. Ona görə də mitinqlə bağlı müraciətləri bir müddət üçün dayandırmaq daha düzgün olmazmı” sualına Tural Abbaslı belə cavab verdi:** “Müxalifətin mitinqlərlə bağlı taktikası məsələsində yanaşmalar müxtəlifdir. Şəxsən mənim mövqeyim bundan ibarətdir ki, mitinq, piket, kütləvi aksiyalar bizim hüququmuzdur və bizlər bu hüquqdan istədiyimiz kimi, istədiyimiz zamanda istifadə edə bilərik. Odur ki, bu gün iqtidar qanunsuz olaraq kütləvi aksiyalara razılıq vermirsə, bu o demək deyil ki, biz sərbəst toplaşmaq azadlığı hüququmuzdan imtina etməliyik. Biz qanunun bizə verdiyi hüququmuzdan sona qədər istifadə etməli və sərbəst toplaşma hüququmuzu bərpa etməliyik. Mən düşünmürəm ki, iqtidar da sona qədər hazırkı qanunsuz mövqeyini qoruya biləcək. Buna nə beynəlxalq, nə də daxili siyasi vəziyyət imkan verməyəcək. Artıq bu lüzumsuz və ziyanlı mövqedən çəkilmək, insanların sərbəst toplaşmaq hüququnu istifadə etmək lazımdır”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Emin Millinin iqtidara pozitiv mesajları niyə qınanır?

## “Meydan TV”nin sabiq rəhbəri mövqeyini, dostları isə ona münasibətini dəyişdi

**Vaxtilə hakimiyyətin siyasətinin tənqidçilərindən olmuş keçmiş bloger, “Meydan TV”nin sabiq rəhbəri Emin Milli (Abdullayev) son vaxtlar iqtidarın addımlarına pozitiv mesajlar verməkdədir.**


Emin Milli

“Yeni Müsavat” xəbər verir ki, sərt tənqidçilərdən olmuş E.Milli son statuslarında ölkədə gedən islahatları müsbət qiymətləndirir.

O, kənd təsərrüfatı naziri İnam Kərimovu həm Azərbaycan dövlətinə, həm Azərbaycan vətəndaşlarına, cəmiyyətimizə ən çox və keyfiyyətli xidmət edən məmurlardan biri hesab edir, “Salaam Cinema Baku” kinoteatrının yerləşdiyi tarixi abidənin sökülməsini dayandıran I vitse-prezident Mehriban Əliyevanın reaksiyasını yüksək dəyərləndirir, hətta statuslarının birində yazır ki, müxalifətin içindən ona təzyiq göstərənlər olub.

Bu da öz növbəsində dünənə qədər onunla eyni mövqedə dayananlar tərəfindən birmənalı qarşılanmır, E.Milli qınanır.

Məsələn, onun İ.Kərimovu təqdir etməsi jurnalist Xədicə İsmayıl, tarixçi Altay Göyüşov, iqtisadçı Zöhrab İsmayıl, Ramiz Yunus və başqaları tərəfindən pis qarşılanıb. Hətta jurnalist Rövşən Əliyev eyham vurub ki, Eminin bu yolu “əməkdar jurnalist”liyə gedir.

İndi çoxlarında sual doğurur ki, E.Millinin “Meydan TV”dən getməsinin arxasında nə dayanır? Son günlərdə mövqeyindəki dəyişikliklərin sirri nədədir? Hakimiyyətdən hansısa gözləntiləri varmı, yoxsa doğrudan da ölkədə gedən müəyyən siyasi-iqtisadi açılımları səmimi şəkildə müsbət hesab edir?

Bəzi müşahidəçilərin fikrincə, E.Milli tezliklə Azərbaycana qayıda bilər. Onun yeni media layihəyə başlayacağı da istisna edilmir. Hətta parlament seçkilərində iştirakını ehtimal edənlər də var.

Qeyd edək ki, E.Milli Almaniyada yaşayır. O, 2001-2002-ci illərdə Almaniyada Avropa Saarbruecken Hüquq Məktəbində oxuyub. 1999-2000-ci illərdə Bakıda Beynəlxalq Respublikaçılar İnstitutunda koordinator, 2002-2004-cü ildə Fridrix Ebert Fondunun Azərbaycan üzrə direktoru işləyib.

2002-2004-cü illərdə Avropa Şurasının Azərbaycanda siyasi məhbuslar üzrə hüquqşünası və məsləhətçisi olub.

2005-ci ildə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun seçki müşahidə missiyasının siyasi təhlilçisinin köməkçisi işləyib.

“Alumni Network” Gənclər Şəbəkəsinin nümayəndəsi, “ANTV” (Alumni Network TV) şəbəkəsinin təsisçilərindən biridir.

2009-cu il iyul ayının 8-də “Ol” Gənclər Hərəkatının həmtəsisçisi olan Adnan Hacızadə ilə birlikdə Bakının Səbayel rayonu ərazisində yerləşən “Lebanes” restoranında baş vermiş davada günahkar bilinib, onların barəsində Azərbaycan Cinayət Məcəlləsinin 127.2.3 (qəsdən sağlamlığa az ağır zərər vurma) və 221.2.1 (xuliqanlıq) maddələri ilə cinayət işi açılıb.

Cinayətdə təqsirli bilinərək Səbayel Rayon Məhkəməsinin 11 noyabr 2009-cu il tarixli qərarı ilə 2 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, “Meydan TV”nin daha 3 əməkdaşının ölkədən çıxışına qadağa ləğv edilib.

Qadağası ləğv olunanlardan biri, jurnalist Aytac Əhmədova ONA-ya bildirib ki, mayın 7-də onların ölkəni tərk etmək qadağası götürülüb. Bu barədə onlara Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İstintaq İdarəsinin rəisi Eldar Əhmədov məlumat verib.

A.Əhmədova ilə yanaşı, Tural Əsədi və Aytən Fərhadovanın da sərhəd qadağası ləğv edilib. A.Əhmədova əlavə edib ki, bu qadağa onlara 2015-ci ildə “Meydan TV” ilə bağlı başlanmış cinayət işində şahid qismində dindirildiklərinə görə tətbiq edilib. O, qadağanın götürülməsinə görə çox şad olduğunu, amma ölkədən getmək fikrində olmadığını bildirib.

Qeyd edək ki, bundan əvvəl jurnalistlər Aynur Elgünəş, İzolda Ağayeva, Natiq Cavadlı, Səlimə Cəlilova və yazıçı Rasim Qaracanın ölkədən çıxışına qoyulan qadağa götürülmüşdü.

❑ **Emil LƏNKƏRANSKİ,**
**“Yeni Müsavat”**

# Marat Ueldenovu Rusiya üçün vazkeçilməz edən səbəblər...



**Hüseynbala SƏLİMOV**

**Bakıda həbsdə saxlanılan erməni əsilli Rusiya vətəndaşı Marat Ueldenov - Qalustyan Moskvaya təhvil verilib.**

Bəlkə də bu ad bizim oxucularımıza artıq elə bir şey demir. Elə biz də bu məsələyə diqqət ayırmazdıq, əgər iki detal olmasaydı.

Birincisi, Qalustyanın azad olunması üçün Rusiyanın xarici işlər naziri Sergey Lavrov cənabları çox canfəşanlıq edirdi.

Prinsipcə, hətta bunu da “başa düşmək” iqtidarındayıq - bir daha deyirik ki, bu cənab Ueldenov-Qalustyan erməni olsa da Rusiya vətəndaşı idi və məsələyə bu aspektdən yanaşanda qonşu ölkənin baş diplomatının onun Rusiyaya təhvil verilməsini bilavasitə öz nəzarətinə götürməsi, hər halda, başadüşülən bir detal sayıla bilər.

Amma burada bir məqam da var. Bir neçə illərdir ki, Ermənistanda həbsdə saxlanılan Dilqəm Əsgərov da Rusiya vətəndaşıdır və Sergey Lavrov cənabları bircə dəfə belə olsun, onun məsələsini qaldırmayıbdır. Daha doğrusu, o, bunu cəmi bircə dəfə edibdir. Bir ara Ermənistanda bir ailəni qətlə yetirən əsgər Valeriy Permyakovla bağlı Moskva ilə İrəvanın arasında mübahisə yaranarkən Sergey Lavrov ilk dəfə Dilqəm Əsgərovu “yada saldı” və dərhal da aydın oldu ki, Rusiyanın baş diplomatı bunu öz forpostlarına təzyiq məqsədilə edir. Sonradan Dilqəm Əsgərov tamamilə unuduldu və biz bu müddət ərzində bir dəfə belə görmədik, eşitmədik ki, Dilqəm Əsgərov da Lavrovun yadına düşmüş olsun.

Ona görə də buradan belə nəticə çıxarmaq olar ki, Rusiya dövlətinin himayəsini və diqqətini hiss etmək üçün ya gərək etnik rus olasan, ya da ki, soyadın heç olmasa, bir “yan” şəkilçisi ilə bitmiş olsun, yəni, erməni əsilli bir adam olasan. Əks təqdirdə qüdrətli Rusiya dövlətinin vətəndaşı olmaqla Vyetnamın vətəndaşı olmaq arasında bir fərq hiss etməyəcəksən və öz aqibətinlə barışmalı olacaqsan...

Əslində burada da təəccüblü və qeyri-adi dərəcədə gözlənilməz bir məsələ yoxdur. Cənab S.Lavrov özü də iki soyadı daşıyır - biri rəsmi, digərisə qeyri-rəsmi şəkildə. Bəli, bu adam rəsmi olaraq - XİN-nin sənədlərində milliyyətcə rusdur, amma internetdəki mənbələrdə onun erməni əsilli olduğu bildirilir.

O ki qaldı bu detalın Rusiyanın xarici siyasətindəki təzahürlərinə, biz bunun da dəfələrlə işarələrini görmüşük. Uzağa niyə gedək, elə bir-iki ay bundan əvvəl bu ölkənin Xarici İşlər idarəsinin Azərbaycana erməni əsilli Rusiya vətəndaşlarının buraxılmaması ilə bağlı qaldırdığı hay-küyü yada salmaq yetərli deyilmi? Və yaxud da Serj Sarqsyanın zamanında Ermənistan Avropa Birliyi ilə saziş imzalayarkən Lavrovun bu məsələyə heç bir reaksiya verməməsini unutmaq olarmı? İndiki kimi yadımızdadı, o vaxt S.Lavrov Avropa Birliyi ilə yaxın münasibətlər quran Gürcüstanın, Moldovanın, Ukraynanın qarasınca xeyli deyinmişdi, Bakını və Minski isə sədaqətinə görə tərifləmişdi, amma İrəvan haqqında bircə kəlmə belə deməmişdi...

Əlbəttə ki, biz iddia etmirik ki, Rusiyanın baş diplomatiya idarəsində digər bir adam otursaydı tamamilə fərqli mənzərə olacaqdı - yox, sözsüz ki, məsələ belə deyil, bir yada salın, görün indiyədək Rusiyada nə qədər xarici işlər naziri olubdur!..

Sadəcə, iki səviyyədə tendensiya olur. Bunlardan biri aparıcı, baş tendensiya olur, digəri isə köməkçi, ikinci dərəcəli. Baş, əsas tendensiya baxımından Rusiyanın xarici işlər naziri kim olursa olsun, onun Dağlıq Qarabağla bağlı siyasəti dəyişməz qalacaq; bu siyasət Rusiyanın region üzrə mövqelərini saxlamağa xidmət edir və o halda dəyişər ki, Kreml bu bölgədəki mövqelərini saxlamaq üçün Qarabağ problemindən effektli və daha etibarlı “rıçaq”lar əldə etsin.

Amma ikinci dərəcəli tendensiyalar da vardır ki, onlar müəyyən dərəcədə personifikasya olunub və Rusiyanın xarici işlər idarəsində kimin oturmasından asılıdır. Məsələn, yazının əvvəlində toxunduğumuz detala qayıdaq. Doğrudanmı, Dilqəm Əsgərovun və Şahbaz Quliyevin azad olunması Rusiyanın bölgədəki geosiyasi mövqeləri üçün təhdid yarada bilərdi? Əlbəttə ki, yox. Bu artıq Rusiyanın xarici işlər nazirinin kim olmasından asılıdır.

Yüzə-yüz əminik ki, burada məhz subyektiv və yaxud da ki, ikinci dərəcəli tendensiyalar özünü bürüzə verir və bizi ixtiyarsız olaraq belə fikrə yönəldir ki, bəzi məsələlər başqa cür də ola bilərdi, əgər Lavrovun əvəzinə başqa bir adam nazir olsaydı...



# Qarğıdalı yüksəkliyi

Zamin HACI
zaminhaci@gmail.com

"Buynuzsuz qoçun qisası,
buynuzlu qoçda qalmaz"
*(Azərbaycan ata sözü)*

**Şuşanın işğalının 27-ci ildönümündə deputat Rasim Musabəyovun qarğıdalı qovurması (popkorn) satan uşaq üzərində şanlı qələbə qazanması yaxşı oldu. Murdar ermənilər qoy görsünlər. Hələ güclü olduğumuzu bilsinlər. Yoxsa lap həyasızlaşıblar, görürsən Şuşada parad qayırırlar, Paşinyanın oğlu Xankəndində dondurma yalayır, daha nə bilim hansı qələtləri edirlər. İndi gördülər ki, qüdrətimiz tükənməyibdir. Əgər popkorn satanı Azneftin altındakı keçiddən qova biliriksə, şübhəsiz, bir gün donuzları da Qarabağın üstündən qovacağıq! Ya Qarabağ, ya qarğıdalı, başqa yolu yox artıq!**

Hadisənin Azneft meydanının altında cərəyan etməsi isə simvolikdir. Biz müstəqillikdə neft gəlirləri, yeraltı sərvətlərimiz hesabına bəy kefində yaşayacağımızı güman edirdik, indi isə Musabəyov yeraltı keçiddə qarğıdalı satmağa da qoymur. Hələ bunun soyadına diqqət eləsək, məşhur familiyalardan biridir. Bunun nənəsinin qardaşı sovet inqilabçısı Qəzənfər Musabəyov olubdur. 1920-ci ildə Qırmızı ordu ilə Azərbaycanı işğal eləyən Qəzənfər müəllim bir müddət Sovet Azərbaycanında rəhbər vəzifələr tutmuş, hətta oyuncaq parlamentin sədri də olmuşdur (ümid edək Rasim müəllim də dayısının yoluyla gedib tezliklə Oqtay müəllimin yerinə keçsin, ondan sonra heç bir deputat Milli Məclisin foyesində popkorn sata bilməsin, ilahi, amin!) 1938-ci ildə isə elə kommunist yoldaşları Qəzənfər müəllimi casus adlandırıb təpəsinə bir güllə qoymuşlar. Maraqlıdır ki, biz Bakıda bu kommunistin adına küçəni hələ də saxlayırıq. Əcaib şəhərdir: eyni zamanda Rəsulzadənin də adına küçə var, Musabəyovun da. Hətta gülməlidir, Musabəyov küçəsi Azadlıq küçəsi ilə yanılmıramsa kəsişir.

Mən Qəzənfər müəllimi niyə xatırlatdım? Məsələ ondadır ki, onun qurduğu Şura hökuməti yalan-gerçək elə o popkorn satanların, kasıbların, yetimlərin quruluşu idi, hətta cavanlar bilməz, o zamanlar tərcümeyi-halında "muzdur, kəndli, fəhlə, popkornsatan ailəsində doğulub" yazmaq dəb idi, indiki kimi hamı soyadını Filankəsbəyzadəganski qoymurdu. İndi belə çıxır Rasim müəllim həm də babalarının yoluna xəyanət edibdir, burjuaziyanın, kapitalistlərin tərəfinə keçibdir. Heç zad demirəm, onu bu müqəddəs ayın yiyəsinə tapşırıram. Əgər sən Ramazan ayında bir yetimin çörəyinə "keçiddən iy gəlir" kimi bambılı bəhanə ilə bais olursansa, inşəallah, o biri dünyada səni qır qazanında qarğıdalı dənəciyi kimi çıtırdada-çıtırdada, patırdada-patırdada qovurarlar.

Dünən bir də nəzarət eləyə bilmədim, hansısa manıs toyda-zadda oxudumu. Çox vacib məsələdir bu. Gərək bizim matəm və işğal günlərində manıslar səslərini çıxarmasın, oxuyub-oynamasın. 8 may da belə günlərdən biridir, Şuşanı 27 il qabaq ermənilərə verib gəlmişik. Əlbəttə, 27 il nə şeydir, əsas odur millətdə ruh yaşasın, 270 il keçsə də biz Şuşaya qayıdacağıq. Ancaq bu müddətdə çalışmaq lazımdır 8 mayda kimsə oxumasın. Gözlə, 9 mayda oxu, 10 mayda lap yaxşı oxu. 8 mayda oxusaq ermənilər eşidər, fikirləşərlər ki, bunlar yaqin razılaşıblar, şəhəri veriblər, toyunu eləyirlər.

Hərçənd mən dünya tarixindən az-maz bilgisi olan adamam, bu şəhər-rayon verilməsini qeyd edən ikinci millət görməmişəm. Adətən camaat haranısa almağını qeyd edir, misal üçün, Berlini, Vyananı, nə bilim, hansı cəhənnəmi. Biz isə şəhəri verməyimizi unutmuruq, guya matah bir iş görmüşük. Bərk-bərk yadda saxlayın, düşüb itməsin. Hələ onu da bilmədim dünən hansısa bambılı jurnalist mikrofon götürüb şəhərdə camaatı "Bu gün nə günüdür" gic sualı ilə qovaladımı. Canınıza azar, belə, gözünüzə girən gündür. Rasim müəllimin Qarğıdalı yüksəkliyini aldığı gündür.

İnşallah, gələn Novruzda "20 Yanvar" metrosunun keçidində limon satan nənənin təpəsinə bayrağımızı taxarıq.

# İstanbulda yeni seçki ölkə iqtisadiyyatını silkələyir

**İstanbulda ali seçki qurumu YSK-nın bələdiyyə sədri seçkilərinin təkrar keçirilməsi barədə qərarından dərhal sonra Türkiyə milli valyutası olan lirə sürətlə dəyərsizləşməyə başlayıb. Bir ABŞ dolları 6 lirədən baha satılmağa başlayıb.**

YSK-nın qərarı iqtisadi və siyasi baxımdan Türkiyə üçün nə deməkdir?

**İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramovun "Yeni Müsavat"a dediyinə görə, qərar Türkiyə iqtisadiyyatına təsirsiz ötüşməyəcək:** "Bu qərar Türkiyə iqtisadiyyatı üçün yaxşı heç nə vəd etmir. Türkiyə lirəsinin dollara nisbətən məzənnəsində azalmaların davam edəcəyi proqnozlaşdırılır. Qərardan əvvəl dolların qiyməti 6 lirənin altındaydı, indi 6,2 lirəyə çatıb. Seçki tərəfləri arasındakı münasibətlər gərginləşərsə, bu halda yaxın zamanlarda Türkiyə pulu "1 dollar 7 lirə" məzənnəsinədək ucuzlaşa bilər".

**Ekspert bildirir ki, qərarın valyuta bazarına ciddi psixoloji təsirləri də var:** "Psixoloji olaraq dollara tələbatın artması müşahidə olunur. Yalnız investorlar deyil, əhalidə də psixoloji qorxu yaranıb. Gözlənilir ki, qardaş ölkədə dollara tələb kəskin artacaq. Həm investorlar, həm də əhali tərəfindən xarici valyuta alışının çoxalacağı gözlənilir. Qərar Türkiyə iqtisadiyyatı, eləcə də İstanbula sərmayə qoyuluşu baxımından da arzuolunan deyil. Təxminən beş ilə yaxındır ki, Türkiyə iqtisadiyyatına investisiyaların axını kəskin şəkildə azalır. Əvvəl Avropa ölkələri ilə siyasi gərginlik, daha sonra ABŞ-la münasibətlərin soyuqlaşması ölkədən investisiya axınını gücləndirib. Bu baxımdan, seçkinin nəticələrinin ləğvi bu axını daha da gücləndirəcək".

**V.Bayramov hesab edir ki, Türkiyə iqtisadiyyatındakı proseslər seçki tərəfləri arasındakı münasibətlərdən çox asılı olacaq:** "Tərəflər gərginliyə gedəcəksə, bu, iqtisadiyyatdakı neqativ prosesləri daha da gücləndirəcək. Yox, seçkinin nəticələri hamı tərəfindən qəbul edilib, gərginlik yaranmayacaqsa, iqtisadiyyatda müəyyən stabilləşmə müşahidə oluna bilər".

**Politoloq Şahin Cəfərlinin fikrincə, İstanbulda seçkilərin təkrarlanmasının ölkədəki siyasi və iqtisadi duruma müsbət təsir etmədiyi ortadadır:** "Ali seçki qurumu - YSK-nın bu qərarının tamamilə qanunsuz, məntiqsiz, hətta gülünc olduğu və siyasi tapşırıqla verildiyi şübhə doğurmur. Bunu YSK-nın qərarının mətnindən də görmək mümkündür. Qərar səsvermənin nəticələrinin saxtalaşdırılması, namizədlərdən birinin səslərinin oğurlanması, yaxud səsvermənin gedişində yol verilən və Azərbaycan vətəndaşları olaraq, bizim çox yaxşı bildiyimiz digər tipik seçki pozuntuları ilə əlaqəli deyil. Qərar bəzi məntəqə seçki komissiyaları sədrlərinin dövlət məmuru olmaması ilə əsaslandırılıb. Qanuna görə, bütün komissiya sədrləri məmur olmalıdır. Lakin komissiya sədrlərinin təyinatını müxalifət və ya başqa qeyri-rəsmi çevrələr deyil, dövlət orqanları həyata keçirir. Bu prosesdə vilayət seçki komissiyaları və onların tabe olduqları YSK-nın, valilik və onların tabe olduqları Daxili İşlər Nazirliyinin iştirakı var. Əgər səhv olubsa, burada müxalifətin və seçkiyə qatılıb səsini verən vətəndaşların günahı nədir? Digər tərəfdən, seçki komissiyaları təşkil olunduqdan sonra siyasi partiyalara 1 həftə vaxt verilir ki, komissiyaların tərkibini araşdırıb, qeyri-qanuni saydıqları məsələlərlə bağlı şikayət etsinlər. Əgər qanunsuzluq var idisə, iqtidar partiyası AKP və onun müttəfiqi MHP seçkidən əvvəl niyə etiraz etməmişdi"?

**Ş.Cəfərli bildirir ki, seçicilər 31 martda 4 seçkili orqan (böyükşəhər bələdiyyə başqanlığı, şəhərin rayonları üzrə bələdiyyə başqanlığı, bələdiyyə məclisləri və muxtarlıqlar) üzrə səs veriblər və 4 bülleten eyni zərfin içinə qoyularaq qutulara atılıb:** "YSK-nın qərarına görə rayon (ilçə) bələdiyyə başqanlığı, bələdiyyə məclisləri və muxtarlıqlar üzrə seçkilərdə problem olmayıb, təkcə böyükşəhər bələdiyyə başqanlığı seçkisində problem var. Bu, necə ola bilər? Axı bütün seçkiləri eyni komissiyalar təşkil edib? Qanunsuzluq varsa, hamısına aiddir, yoxdursa yenə hamısına aid olmalıdır".

**Politoloqun sözlərinə görə, qərar iqtisadi böhrana paralel olaraq siyasi böhranın da başladığını göstərir:** "Belə çıxır ki, seçki yolu ilə iqtidara gəlmiş qüvvə 1950-ci ildə ölkə demokratik sistemə keçdikdən bəri ilk dəfə olaraq seçki yolu ilə iqtidarı təhvil verməyəcək və hakimiyyəti uzurpasiya edəcək. Çünki bələdiyyə seçkisindəki məğlubiyyəti ilə barışmayan iqtidar prezident seçkilərini uduzduqdan sonra hakimiyyəti təhvil verməyi heç istəməz. YSK qərarı Türkiyədə məhkəmə hakimiyyətinin də tamamilə siyasi iqtidardan asılı olduğunu sübut etdi".

**YSK qərarından sonra lirənin ucuzlaşmağa davam etməsinə gəldikdə isə, Ş.Cəfərlinin sözlərinə görə, bu tendensiyanın seçkilərlə birbaşa bağlılığı yoxdur:** "Lirənin vəziyyəti ölkədəki iqtisadi böhrandan, hökumətin böhrandan çıxış üçün ciddi proqram ortaya qoymamasından, Mərkəzi Bankın valyuta ehtiyatının ciddi şəkildə azalmasından qaynaqlanır. Amma şübhəsiz ki, iqtisadi böhran ölkədəki siyasi proseslərlə də əlaqəlidir. Yəni siyasətin iqtisadiyyata, iqtisadiyyatın isə siyasətə təsirləri var. İqtisadi böhranın səbəblərindən biri Türkiyənin demokratiyadan, hüquq dövləti prinsiplərindən uzaqlaşması ilə bağlıdır. YSK-nın son qərarı ölkədə məhkəmə müstəqilliyinin olmadığını bir daha göstərdi. Ənənəvi media iqtidarın nəzarəti altındadır və müxalifətə qarşı mütəmadi olaraq qarayaxma kampaniyası aparır. Belə bir ölkəyə kənardan investisiya gəlməz, daxildəki kapital isə qaçar. Necə ki, qaçır. Əcnəbilər bir yana, türk milli burjuaziyası da son illər öz kapitalını ölkədən çıxarmağa başlayıb. Təkcə ötən il Türkiyə vətəndaşı olan 4 min nəfər dollar milyoneri ölkəni tərk edərək ABŞ və Avropaya gedib. Ölkədən beyin köçü də var. Bu neqativ tendensiyanı dayandırmağın yeganə çıxış yolu ölkənin yenidən normallaşması, hüquq və azadlıqların, məhkəmə müstəqilliyinin, söz azadlığının bərpa olmasıdır".





## Vüqar Bayramov: "Bu qərar Türkiyə iqtisadiyyatı üçün yaxşı heç nə vəd etmir"
## Şahin Cəfərli: "Belə bir ölkəyə kənardan investisiya gəlməz, daxildəki kapital isə qaçar"

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

**"Ermənistan Rusiyadan çoxfunksiyalı Su-30SM qırıcıların alınması prosesinə başlayıb". "Yeni Müsavat" xəbər verir ki, bu sözləri baş nazir Nikol Paşinyan dünənki mətbuat konfransında deyib. Az öncə işğalçı ölkənin müdafiə naziri David Tonoyan bildirmişdi ki, İrəvan Rusiyadan 4 ədəd Su-30SM-i ilin sonu və ya 2020-ci ilin əvvəlində almaq istərdi.**

# İrəvan hələ alınmayan qırıcılarla öyünür, Bakı isə...

## Rusiyaya xilaskar kimi baxmaq zorunda qalan "qərbçi" Paşinyanın başı dərddə: cəmi 1 il qabaq ölkəsinin Moskvadan vassal asılılığını azaldacağına söz vermişdi, indi isə...; "İsrail Azərbaycanın düşməninə bir güllə belə verməyəcək" - yəhudi dövlətinin sabiq briqada generalı...



Yəni söhbət ilk növbədə istəkdən gedir. Moskva isə hələ ki qırıcıların nə vaxt Ermənistana veriləcəyi barədə rəsmi açıqlama yaymayıb. "Ermənistan Rusiyadan çoxfunksiyalı Su-30SM qırıcıların alınması prosesinə başlayıb. Bunu deyirəm, çünki artıq məlum faktdır. Alınacaq başqa tip silahlarla bağlı isə heç nə söyləyə bilmərəm", - Paşinyan mətbuat konfransında bildirib.

Bir çox təhlilçilər isə Paşinyanın hələ alınmayan silahlara görə sevinməsini yersiz sayır. Təbii ki, bu, ən çox daxili auditoriyaya ünvanlı açıqlamadır. O anlamda ki, 1 ildə daxildə ciddi heç bir islahat apara bilməyən "qərbçi" N.Paşinyandan narazı olan elektorat heç olmasa, "yeni silahlarla" özünə təsəlli tapsın. Hansı silahlar ki, hələ heç Ermənistana gəlib çıxmayıb. Ona görə ki, Paşinyanın Rusiya qarşısında içdiyi sədaqət andlarına rəğmən, Putinin cəmi 1 il öncə Ermənistanın Rusiyadan vassal asılılığını azaldacağına söz verən Paşinyandan hələ də "gözü su içmir".

*****

Əlbəttə ki, əhalisinin yarıdan çoxu yoxsul olan, bir o qədəri də çörək pulu və iş tapmaq üçün başqa ölkələrə səpələnmiş - o sırada nə qədər qəribə də olsa, erməni miqrantlar Türkiyədə də kök salıblar - kasıb Ermənistanın yeni rəhbərliyi də silahlanma məsələsində yalnız güzəştli Rusiya silahlarına, onun silah kreditlərinə ümid edə bilər. Rusiya isə silahları ucuz və ya daxili bazar qiymətinə kiməsə elə-belə vermir. Mütləq qarşılığı olmalıdır.

Qarşılıq isə - Ermənistanın olan-qalan müstəqilliyinin alınması və onun qeyri-müəyyən müddətə kölə, qul vəziyyətinə salınmasıdır. Guya Nikol Paşinyan bu asılılığı azaldacaqdı. Bu barədə o, onun hakimiyyətə gətirən kütləyə söz də vermişdi. Amma indi sanki sevinc içində Ermənistana Rusiya qırıcılarının gətiriləcəyini anons edir. Daha fərqində deyil ki, bu qırıcılar işğalçı ölkənin təhlükəsizliyini deyil, Moskvadan forpost asılılığı gücləndirəcək. Hələ onu demirik ki, yeni nəsil qırıcıların istifadəsi yalnız Moskvanın izni ilə mümkün olacaq.

Azərbaycan isə əksinə, yalnız öz hesabına hərbi və döyüş qüdrətini artırdığı üçün müstəqilliyini və suverenliyinə hər hansı xələl gələ bilməz. Bakı başqa dövlətlərlə hərbi-texniki əməkdaşlıq məsələsində Ermənistandan fərqli olaraq, bərabər status-da çıxış edir və aldığı silah-sursatın əvəzində hətta qardaş Türkiyə qarşısında belə, hansısa əlavə siyasi öhdəlik götürmür.

*****

Bizim mühüm silah tədarükçülərimizdən biri də İsraildir. Artıq İsraildən alınan modern silahların, məxsusən PUA-ların real gücünü işğalçı tərəf bir dəfə (2016-cı ilin apreli) öz üzərində hiss edib. Belə görünür, yenə hiss edəcək. Şübhə yox ki, bu səbəbdən Ermənistanın xarici işlər naziri Zoqrab Mnatsakanyan ötən həftə İsraildə səfərdə olarkən rəsmi Təl-Əvivə az qala, yalvarırdı ki, İsrail Azərbaycana silah satmasın. Ancaq bu, ermənilərin, Mnatsakanyanın girəcəyi "kol", müdaxilə edə biləcəyi mövzu, əməkdaşlıq sferası deyil. Sırf iki ölkənin məsələsidir.

Aydındır ki, İsrail ölkəmizə modern silah-sursatı, döyüş sistemləri və PUA-ları yalnız kommersiya (qazanc) marağı üzündən vermir. Bütövlükdə iki tərəfdaş ölkə arasında çoxdandır mövcud olan strateji və ənənəvi dost əlaqələrə görə satır. Hansı əlaqələr ki, Ermənistanla yoxdur və gözlənilmir də. Bəlkə nə vaxtsa yəhudi dövlətinin Ermənistanla münasibətlərində normallaşma olsun. İstənilən halda, bu, Azərbaycanla əlaqələr kimi yüksək səviyyəyə çatmayacaq.

*****

**"İsrail Ermənistanın onunla münasibətlərini düzəltmək istəməsinə hazırdır, amma bir şeyi anlayın ki, İsrail Azərbaycanın düşməninə bir güllə ilə belə kömək etməyəcək". Bunu Stmegi.com saytına açıqlamasında İsrail müdafiə nazirinin keçmiş müavini, sabiq briqada generalı Efraim Sne deyib (Axar.az).**

"İsrail Azərbaycan əleyhinə istifadə oluna biləcək hər hansı bir şeyi Ermənistana tədarük edə bilməz. Bizim mövqeyimiz budur. Əminəm ki, hökumətimizdə heç kim o qədər də axmaq deyil ki, bunu anlamasın. İsrail hətta Azərbaycanın düşməninə milliqram da olsun, kömək etməyəcək. Biz müttəfiqik, biz qardaşıq", - deyə o bildirib.

Jurnalistin "Bəs İsrail hansı müasir silahları Azərbaycana təklif edəcək" sualına Sne Təl-Əvivin belə məsələləri müzakirəyə çıxaracaq qədər sadəlövh olmadığı cavabını verib: "Mən silahlardan yox, yalnız ikitərəfli əlaqələrdən danışa bilərəm. İkitərəfli münasibətləri yaxşı kimi dəyərləndirirəm, amma bu münasibətlər daha da yaxşılaşmalıdır. Biz gərək dostluğumuzu, əməkdaşlığımızı mədəniyyət və elm sahəsində də genişləndirək, yalnız müdafiə sferası ilə məhdudlaşmamalıyıq. Təkliflər çoxdur. Biz Azərbaycanla dostluğu qiymətləndiririk. O, bizə çox lazımdır".

İsrailli keçmiş briqada generalı konkret söyləməsə də, iki ölkə arasında hərbi əməkdaşlığın yüksələn xətlə davam etdiyi məlumdur. Az öncə Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənovun İsrailə çoxgünlük səfəri, orada əldə olunan yeni anlaşmalar, ondan bir qədər qabaq isə İsrailin o vaxtkı müdafiə naziri Avidqor Libermanın çoxgünlük Bakı səfəri buna parlaq sübutdur...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Bizi ermənilərlə birləşdirən "dəyər"



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Bu gün mayın 9-u alman faşizmi üzərində qələbənin 74-cü ildönümüdür. Ancaq Hitler Almaniyası İkinci Dünya müharibəsinin yekununda darmadağın olsa da, əfsus ki, dünyada faşizm təhlükəsi hələ sovuşmayıb. Söhbət heç də Avropada son illər boy verməkdə olan ultramillətçi, ksenofobik qüvvələrdən getmir. Daha təhlükəlisi var.**

Bir az yaxına gələk. Məsələ ondadır ki, bizim bədnam qonşumuz Ermənistan, faktiki, İkinci Dünya savaşından sonra neofaşizmin əməlli-başlı çiçəkləndiyi məkan sayıla bilər. Günün nonsensi də odur ki, bu gün Azərbaycan torpaqlarında faşistlər kimi etnik təmizləmə aparmış, Xocalı soyqırımı kimi insanlığın üz qarası olan vəhşiliyi törətmiş və Ermənistanı monoetnik dövlətə çevirmiş qonşu ermənilər də bizim kimi "Qələbə günü"nü qeyd edirlər. 9 May bizi ermənilərlə birləşdirən "dəyər" imiş. Amma... tələsməyək.

Əvvəla, ermənilər bunu "el xətrinə", bir az da ağaları Rusiyadan ehtiyatlanaraq edirlər. Bununla belə, ilyarım öncə, eks-prezident Serj Sərkisyanın dövründə hətta Rusiyaya da məhəl qoymadan İrəvanın mərkəzində faşist əlaltısı, erməni Qaregin Njdeyə abidə ucaltdılar. O vaxt rəsmi Moskva XİN mətbuat katibi Mariya Zaxarovanın dili ilə buna kəskin reaksiya verdi. Lakin abidə hələ də öz yerindədir.

Əslində Xocalı soyqırımı törətmiş bir millətin paytaxt şəhərində faşist ünsürünə abidə qoyulması, faşisti özünə rəğbət subyekti seçməsi məntiqlidir. Sözgəlişi, iki gün öncə Rusiya XİN-in 9 may qələbəsinin ildönümü ilə bağlı yaydığı hesabatda abidəyə bir daha sərt etiraz yer alıb. Hesabata görə, Gürcüstan və Azərbaycanda isə "3-cü Reyx"lə əməkdaşlıq edənlərin qəhrəmanlaşdırılmasına dair heç bir fakt qeydə alınmayıb.

Hələ Ermənistan Rusiyanın vassalı, nökəri statusunda özünü belə aparır, gör Allah eləməmiş, Azərbaycan kimi müstəqil güc olsaydı, hansı hoqqalardan çıxardılar. Yəqin ki, Hitlerə də İrəvanın mərkəzində heykəl qoyardılar...

İndi guya Ermənistanın yeni rəhbəri Nikol Paşinyan demokrat birisidir, başqa millətlərə qarşı daha tolerant ermənidir. Ancaq bir neçə gün öncə onun birbaşa rüsxəti və istəyi ilə erməni terrorçusu və ASALA üzvü - ötən əsrin 70-ci illərində ABŞ-ın Los-Anceles şəhərində iki türk diplomatını qətlə yetirmiş Qurgen Yanikyanın nəşi İrəvana gətirilərək təntənəli şəkildə təzədən dəfn olundu.

Yəni terrora, terrorçuya növbəti dəfə açıq rəğbət, türk millətinə açıq nifrət təzahürü!!

Bu qələti heç Xocalı hərbi caniləri - Serj Sərkisyan və Robert Köçəryan da etməmişdilər. Biz də bu adamdan torpaqlarımızı dinc yolla geri alacağımızı umuruq. Necə deyərlər, "İlanın ağına (Paşinyan) da lənət, qarasına - (Köçəryan-Sərkisyana) da".

Özümüzü aldatmayaq: Ermənistanın yeni hakimiyyəti də köhnələrlə eyni məfkurəni bölüşür. Bu da türklərə (oxu: azərbaycanlılara), insana, insanlığa nifrətdən, faşist-terror ideologiyasına sayğıdan ibarətdir. Odur ki, başımıza, Qarabağımıza ayrı çarə axtaraq. Faşizm üzərində qələbə təcrübəsi bizə əslində onu yetərincə aydın şəkildə işarə verir - güc tətbiqi...

74 il öncə, 9 may 1945-ci ildə alman faşizminin kökü kəsildi. Alman xalqı buna görə bəşəriyyətdən üzr də istədi, yəhudilərə böyük məbləğdə təzminat da ödədi. Amma erməni faşizmi dünyanın gözü qarşısında sanki dirçəliş dövrünü yaşayır. İrəvanda faşistə abidə ucaldılır, terrorçunun nəşi gətirilərək təntənəli şəkildə dəfn edilir. XXI əsrdə!!

Görəsən, niyə? Ona görə ki, erməni faşizminin hədəfi yalnız türk-müsəlmanlardır?..

YENİ MÜSAVAT
N 100 (7270) 9 may 2019

# Azərbaycanlıların "Türkiyə seçkisi sevdası"nın səbəbləri

**Azərbaycanlılar Türkiyədə keçirilən prezident, parlament, hətta bələdiyyə seçkilərini xüsusi maraq və canıyananlıqla izləyir. İnsanlar emosional şəkildə müzakirələrə qoşulur, tərəf saxlayır, həyati əhəmiyyətli bir hadisə kimi yanaşır, hətta bir-birini aşağılayırlar.**






**Fazil Mustafa:** "Heç kim istəmir ki, Türkiyə sıxıntı içində olsun"
**Sabir Rüstəmxanlı:** "Türkiyədəki seçkilər doğrudan da maraqlıdır, Avropanın həsəd aparacağı prosesdir"
**Aqil Abbas:** "Türkiyə nə qədər qüdrətli olarsa xeyrimizədir, çünki bizim sözümüzü də deyəcək"
**Qulamhüseyn Əlibəyli:** "Sovet vaxtından azərbaycanlılar Türkiyə ilə maraqlanıblar, bu da etnik mənsubiyyətimizin eyniliyindən irəli gəlir"

Adekvat münasibəti nə Rusiya, nə İran, nə Ukrayna, nə Gürcüstanda keçirilən seçkilərdə görmək olar. Amma Türkiyənin siyasi həyatında nə baş verirsə, bizimkilər həssaslıqla izləyir, öz taleyinin, müqəddəratının həll olunması qədər həyəcanla reaksiya verir. Bunun səbəbləri əlbəttə ki, olmamış deyil.

**Deputat Fazil Mustafa** "Yeni Müsavat"a bildirdi ki, azərbaycanlıların Türkiyənin siyasi həyatı ilə hədsiz dərəcədə maraqlanması bu ölkə ilə yaxınlığımızdan irəli gəlir: "Biz Türkiyədə baş verən hər hansı hadisəyə bu ölkənin irəliləməsi və ya geriləməsi kontekstindən yanaşırıq. Bu baxımdan heç kim istəmir ki, Türkiyə sıxıntı içində olsun. Çünki hazırda Türkiyə iqtisadi böhran yaşayan bir ölkədir".

**F.Mustafanın sözlərinə görə, Azərbaycanın iqtisadi və siyasi həyatında Türkiyə kimi dinamizm yoxdur:** "Kaş bizdə də canlanma olsun. Türkiyədə aktivlik var, maraqlı proses gedir".

**VHP sədri, Xalq şairi Sabir Rüstəmxanlı hesab etmir ki, azərbaycanlılar özümüzdən çox Türkiyənin siyasi həyatı ilə maraqlanır:** "Sadəcə, bizdə ağrı içərimizdədir, gündəlik həyatımızda bu çətinlikləri yaşayırıq. Türkiyə siyasəti isə üzdədir, efirdən izləyirik. Başqa bir səbəb Türkiyə telekanallarının açıq olmasıdır. Bizdə dövlətin gördüyü işlər televiziyada verilir. Amma ona münasibət, müxtəlif qütblərin mövqeyi, şərhi ekrana çıxmır. Onda belə təəssürat yaranır ki, Azərbaycanda siyasət sönüb".

**S.Rüstəmxanlının sözlərinə görə, eyni zamanda Türkiyədəki seçkilər doğrudan da maraqlıdır:** "Avropanın özünün həsəd aparacağı bir seçkidir. Türkiyədə əhalinin böyük əksəriyyəti seçkiyə qatılır, Qərb ölkələrində isə seçici aktivliyi 50 faizdən çox olmur".

**VHP sədri xatırladır ki, həmişə müxalifət seçkinin nəticələrindən narazı qalırdı:** "Bu dəfə isə iqtidar saxtakarlıq edildiyini söyləyir. İqtidar deyir ki, saxtakarlıq olub, kənar barmaq var. Biz indi buna şərh verə bilmərik, hüquq-mühafizə orqanlarının işidir. Amma İstanbulda bələdiyyə seçkilərinin nəticələrinin ləğvi mənə şübhəli görünür. Hesab edirəm ki, bu qərarda hakimiyyətin təsiri olub. Bütün bunlar isə Azərbaycan cəmiyyətinin gözü qarşısındadır. Biz bir millətik, Türkiyə dünyada ən etibarlı, sadiq dostumuzdur. Obanın bir ucunda baş verənlər o biri ucunda reaksiya doğurmalıdır. Çünki Türkiyənin güclü olması bizim güclü olmağımızdır, hər bir vətəndaşımızın marağı daxilindədir.

Orada seçkidə kimin qalib gəlməsindən asılı olmayaraq, Azərbaycanla Türkiyənin dostluğu davam etməlidir".

**Yazıçı, deputat Aqil Abbas Türkiyəni Azərbaycana dayaqlardan biri sayır:** "Bu, belədir. Türkiyə nə qədər qüdrətli olarsa bizim xeyrimizədir, çünki bizim sözümüzü də deyəcək. İçimən qarışıq hamımız onların siyasəti ilə maraqlanırıq, hətta futbolunu yaxından izləyirik.

Məsələn, Almaniyada tanımadığımız iki klub oynayır, hansında türk varsa onu dəstəkləyirik. Bu dərəcə onlara sevgimiz var və bilmirəm onlar da bizi belə sevirlərmi".

**A.Abbas hesab edir ki, Türkiyə iqtidarı ciddi səhvlər edib:** "Ona görə də maraqlanırıq ki, orada kim iqtidar olacaq. Türkiyədə iqtidarın ən böyük səhvi İstanbul seçkilərinin nəticələrini ləğv etməsiydi. Bu addım demokratiyaya ziyan vurdu. Bu dəfə İmamoğlu 70 faiz səslə qalib gələcək.

Mən Ərdoğanı Türkiyənin ən natiq, xarizmatik liderindən sayıram, səmimi söhbətlərimiz olub. Amma buna niyə getdi, anlamıram".

**Aydınlar Partiyasının sədri, hüquqşünas Qulamhüseyn Əlibəyli qeyd etdi ki, Azərbaycan və Türkiyənin ortaq maraqları var. Onun sözlərinə görə, sovet vaxtından azərbaycanlılar Türkiyə ilə maraqlanıblar:** "Bu da ilk növbədə etnik mənsubiyyətimizin eyni olmasından irəli gəlir. Türkiyə Azərbaycanın güvənc yeridir və bu gün də Ermənistanla sərhədlərini bizə görə açmır. Bu qədər prinsipiallıqdan artıq nəzərə alınmalıdır ki, nə üçün oradakı proseslərlə çox maraqlanırıq. Digər tərəfdən, azərbaycanlılar Türkiyədə baş verən siyasi proseslərdən nümunə götürməkdədir.

Düzdür, daha çox Avropa, Amerika siyasətində, demokratiyasındakı inkişafdan nümunə götürmək istəmişik. Lakin Türkiyə daha yaxınımızdadır".

**Partiya sədrinin fikrincə, Azərbaycan dövlət müstəqilliyini təxminən 30 ildir ki, bərpa edib və bu müddətdə gedən siyasi proseslərin hər bir dönəmi ayrı-ayrılıqda maraqlı olub:**

"Mən onları bir-birindən fərqləndirməzdim. Hesab edirəm ki, hər bir dövr öyrənilməli, təhlil edilməlidir".

**❑ Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# İran-ABŞ gərginliyi: tətiyə birinci kim basacaq?

## Elşən Mustafayev: "Regionda növbəti qaynar ocağın yaranması qaçılmaz ola bilər..."

**ABŞ və İran arasındakı gərginlik müharibə riskini get-gedə artırır. Birləşmiş Ştatlar cənub qonşumuzu iqtisadi cəhətdən çökdürmək üçün cəhdlərini davam etdirir. Lakin rəsmi Tehran da dinc dayanmır, "əzələ nümayiş" etdirir. Artıq mümkün müharibə ehtimallarından hər iki tərəf söz açmağa başlayıb.**

"İran ordusu və İranın dəstəklədiyi qüvvələr Yaxın Şərqdə ABŞ ordusuna qarşı hücuma hazırlaşır". Axar.az xəbər verir ki, bu barədə ABŞ Mərkəzi Qüvvələr Komandanlığı və ABŞ-ın Avropadakı komandanlığı bəyanat yayıb.

"Avraam Linkoln" təyyarədaşıyan gəmisinin bölgəyə ABŞ müdafiə nazirinin səlahiyyətlərinin müvəqqəti icraçısı Patrik Şanahanın icazəsi ilə göndərildiyini deyən polkovnik Bill Urban İrandan ciddi hücum təhdidlərinin olduğunu vurğulayıb. Qeyd edilir ki, sözügedən məlumat ABŞ-a İsrailin kəşfiyyat xidmətindən ötürülüb.

Bundan əlavə, İranın Ali Milli Təhlükəsizlik Şurası Hərtərəfli Birgə Fəaliyyət Planının üzvlərinə bəyanat ünvanlayıb. Bəyanatda deyilir ki, İran mayın 8-dən etibarən nüvə sazişindəki bəzi addımlarını dayandıracaq. Əlavə olunur ki, İran hazırkı mərhələdə artıq zənginləşdirilmiş uranın və ağır su ehtiyatlarının saxlanılmasına dair məhdudiyyətlərə öhdəlikli olmayacaq. İranın Ali Milli Təhlükəsizlik Şurası qalan ölkələrə nüvə sazişindəki, xüsusilə də bank və neft sektorlarında öz öhdəliklərini yerinə yetirmək üçün 60 gün vaxt verir.

Ekspertlər İran geri çəkilməyəcəyi təqdirdə yaxın gələcəkdə müharibə variantını mümkün sayırlar. Gedən müzakirələrdə Azərbaycanın da adı keçir. Bu da səbəbsiz deyil. Çünki İran bizə həmsərhəd ölkədir.



**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev müharibənin baş verəcəyinə inanmır:** "ABŞ-İran münasibətləri son vaxtlar artan xətt üzrə gərginləşsə də, bunun müharibə həddinə çatacağına yaxın gələcək üçün əmin deyiləm. Hazırkı situasiya bölgədə indiyə qədər bir neçə dəfə baş verib. İranın təhdidlərini də görmüşük, ABŞ-ın bölgəyə hərbi kontingent yığmağının da şahidi olmuşuq. Amma hər dəfə hər iki tərəf daha da irəli getməkdən çəkinib. Bütün bunlara rəğmən, dünyada ən böyük müharibə riski olan ölkə bu gün İran hesab olunur. Ortada olan ağır sanksiyalar, qarşılıqlı ittihamlar və təhdidlər İran məsələsində ABŞ-ın geri durmaq istəyinin olmadığını göstərir. Eyni zamanda maksimum şəkildə silahlardan istifadə olunması da arzu edilən deyil. Ən azından ABŞ İraqda olduğu kimi, BMT sanksiyası olmadan təkbaşına müharibəyə başlamaq məsuliyyətinin altına girmək istəmir. Məsələ ondan getmir ki, müttəfiqlərsiz hansısa uğur qazana bilməz. Amma bu dəfə beynəlxalq konvensiyalar, qərarlar çərçivəsində bu addımı atmaq istəyər. Yox, əgər müharibə istiqamətində kiçik də olsa addım İran tərəfindən atılarsa, ABŞ bundan dərhal istifadə edəcək, digər böyük dövlətləri də ətrafında cəmləşdirəcək. Nəticə etibarilə bütün gücü ilə İranla bağlı məsələni birdəfəlik çözəcək. Bu halda nə Rusiya, nə Çin, nə də digər dövlətlər həm ikitərəfli, həm də BMT çərçivəsində bir söz deyə bilməyəcəklər. Ona görə də İranın hansısa əməliyyatlara başlayacağı perspektivinə inanmıram. İranın nüvə sazişindəki bəzi müddəalardan geri çəkiləcəyi, ABŞ-a ultimatumlar verməsi ilə bağlı yayılan məlumatlara gəlincə isə, bu addımı atacağına inanıram. Hesab edirəm ki, bu, sanksiyalardan əziyyət çəkən bir dövlət tərəfindən edilən blefdir. Amma fikir verin, söhbət bəzi müddəalardan gedir. Yəni bütünlükdə nüvə başlığı yaradacaq, hətta uranın zənginləşdirilməsi məsələsindən söhbət getmir. İran sanksiyalar içində boğulduğundan ABŞ-a mesaj vermək istəyir ki, əgər belə davam edərsə, gələcəkdə uranın zənginləşdirilməsi ilə bağlı bütün danışıqlardan imtina edəcəyəm. Yeri gəlmişkən, Obama zamanında ABŞ və İran arasında danışıqlarla bağlı saziş var idi və bundan sonra bir çox sanksiyalar aradan götürülmüşdü. Tramp hakimiyyətə gəldikdən sonra bu sazişdən birtərəfli qaydada çıxıb. Əslində bu addımdan sonra İranın nüvə sazişi ilə bağlı addımlar atacağı gözlənilirdi. Amma hesab edirəm ki, istənilən halda gedişatda basqı altında olan İran olduğundan pressinqlərin təsirindən əsəbi addımlar ata bilər ki, nəticəsi özü üçün yaxşı olmaz. Ediləcək səhvlər ABŞ-a və Qərbə gələcək addımlarına haqq qazandırmaq üçün böyük imkanlar yarada bilər. Düşünürəm ki, əllərində ciddi əsas və səbəb olmadan regionda ABŞ-ın müdaxiləsi, müharibəyə başlaması olmayacaq. Yox, belə bir səbəbi İran yaradarsa, o zaman regionda növbəti qaynar ocağın yaranması qaçılmaz olacaq. Belə bir halın isə qonşu dövlətlərə, xüsusən də Azərbaycana təsirlərinin olacağı şübhəsizdir. Ancaq düşünmürəm ki, müharibə olacağı halda ABŞ Azərbaycanı proseslərə cəlb etmək istəsin. Yəni söhbət bizim ərazilərdən istifadə olunmasından, loqistik dəstək istənilməsindən gedir".

**Ekspert İranla bağlı mövcud vəziyyətin Azərbaycana təsirləri barədə də danışdı:** "Bizim üçün cənub qonşumuzun ərazisində fəsadların bizə də toxunacağı səbəbindən çaxnaşmalar arzuolunan deyil. Amma bu olacaqsa, hadisələrdən maksimum kənarda durmaq, olacaqlardan sığortalanmaq ən doğru addımdır. Biz elə də böyük dövlət deyilik ki, belə hallarda vasitəçilik edək, göstəriş verək və s. Ən əsası, hadisələrin baş verəcəyi halda sərhədlərimiz daxilində təhlükəsizliyimizi təmin etməkdir. Amma dediyim kimi, bu gün hələ belə bir perspektivin olacağına, yəni İranın özü üçün məhvedici səhvlər buraxacağına inamım azdır".

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (7270) 9 may 2019

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi




# İrəvandan Şuşa təxribatı - Bakının cavabı gecikmədi

## İşğalçı ölkənin rəhbəri ərazilərimizdə keçiriləcək mərasimə qatılmazdan öncə Qarabağ separatçılarını hədələdi; **Şuşa uğrunda döyüşmüş Yavər Hüseyn:** “O yerləri qaytarmağımız üçün fədailər ordusuna ehtiyacımız var...”

**Mayın 9-da Azərbaycanın 27 ildir ki, işğal altında olan Şuşa şəhərində Ermənistan rəhbərliyinin və Qarabağ separatçılarının iştirakı ilə “qələbə” tədbirləri keçiriləcək. Ermənistanın eks-prezidenti Serj Sərkisyan hələ iki gün əvvəldən tədbirlərə qatılmaq üçün Qarabağa gəlib.**

Separatçı qurumun əvvəlki və indiki oyuncaq “prezidentləri” isə Ermənistanın baş prokuroruna müraciət ediblər. “Yeni Müsavat” bununla bağlı erməni mediasına istinadən xəbər verir ki, Arkadiy Qukasyan və Bako Saakyan Ermənistanın keçmiş prezidenti, Qarabağ klanının rəhbərlərindən biri Robert Köçəryanın həbsdən azad olunmasını xahiş ediblər. Bununla da Qarabağ separatçıları Qarabağ klanını müdafiə ilə bağlı növbəti addımını atıb. Lakin Ermənistan prokurorluğundan məsələnin bu qurumun səlahiyyətində olmadığı haqda cavab gəlib. 1 mart hadisələrində günahlandırılaraq həbs edilmiş keçmiş baş nazir müavini Armen Gevorkyanı isə məhkəmə mayın 7-də azadlığa buraxaraq, Qarabağa yollanmasına icazə verib.

Ermənistanın baş naziri Nikol Paşinyanın reaksiyası isə özünü gözlətməyib. O, Dağlıq Qarabağın indiki və keçmiş qondarma liderlərinin Köçəryanın həbsxanadan buraxılması, onun Şuşanın işğalı münasibətilə keçirilən mərasimlərdə iştirakına icazə verilməsi haqda çağırışını rədd edib.

**Virtualaz.org erməni KİV-lərinə istinadən xəbər verir ki, Paşinyan bu haqda jurnalistlərlə söhbətində danışıb.** “Mən hesab etmirəm ki, Dağlıq Qarabağ hakimiyyəti hansısa formada Ermənistanın daxili işlərinə qarışa bilər. Və ümumiyyətlə, heç kim bunu edə bilməz - Ermənistan müstəqil, suveren ölkədir” - o, Bako Saakyanın və Arkadi Qukasyanın çağırışına cavab olaraq bildirib.

Paşinyanın sözlərinə görə, Saakyanın və Qukasyanın Ermənistanın baş prokuroruna ünvanladıqları məktubda bəhs edilən “milli birlik” məsələsi də baş tutan deyil. Çünki dövlət vəzifələrində olanların qohumları və ailə üzvləri milyonçuya çevrilirsə, beləri ilə milli birlikdən söhbət gedə bilməz". N.Paşinyan özünü Qarabağ klanının lideri kimi gözə soxan və separatçılara arxalanıb onun hakimiyyətinə meydan oxuyan Sərkisyan haqda da sərt danışıb. “Serj Sərkisyan hələ də bu suala cavab verməyib ki, nəyə görə onun ailəsi milyonçu olub, amma əsgər yeməyə çörək tapmayıb. Mən beləri ilə bir ola bilmərəm. Elə şeylər var ki, mən onları bağışlamaram. Bu haqda danışmayacam, amma bağışlamaq fikrim də yoxdur. Mən ailələri milyonçu olan məmurlarla bir ola bilmərəm” - Paşinyan qeyd edib.

Ermənistanın həbsdə olan eks-prezidenti Robert Köçəryan isə həbsxanadan donquldanıb. Aydın şəkildə görünür ki, R.Köçəryan və onu müdafiə edənlər növbəti revanşa hazırlaşırlar. İstisna deyil ki, bu qüvvələrin arxasında hansısa güc mərkəzləri dayanır və Paşinyan da bunu bildiyindən Köçəryanın həbsdən buraxılmasına risk etmir.

Şuşadakı tədbirlərdə N.Paşinyan da iştirak edəcək. Lakin maraqlıdır ki, işğalçı ölkənin ilk prezidenti Levon Ter-Petrosyan Azərbaycanın işğal altındakı torpaqlarında qondarılmış separatçı-terrorçu rejimin Şuşanın işğal edilməsinin 27-ci ildönümü ilə bağlı mayın 9-da təşkil etdiyi tədbirlərə dəvət almayıb (Moderator.az). Ermənistan mətbuatı bu haqda L.Petrosyanın lideri olduğu Ermənistan Milli Konqresinin mətbuat katibi Arman Musinyana istinadla məlumat yayıb. Ter-Petrosyanın düşməni olan Serjik Sərkisyan Qarabağda olsa da, onun Şuşanın işğalı ilə bağlı “rəsmi” tədbirlərə qatılıb-qatılmayacağı dəqiq deyil. Hər halda, Paşinyanın son xəbərdarlığının ardınca Qarabağ separatçılarının Sərkisyanı yuxarı başa keçirməsi İrəvana meydan oxuma kimi qəbul olunacaq.

*****

**Dünən Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) Şuşa şəhərinin işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb. Bəyanatda deyilir ki, Ermənistan siyasi rəhbərliyinin bu ölkənin hərbi işğalı altında saxlanılan Şuşa şəhərinə səfər edərək burada qondarma “qələbə günü”nü qeyd etməsi Ermənistan tərəfinin növbəti təxribatı olmaqla yanaşı, bu ölkənin Azərbaycan ərazilərinin işğalında birbaşa iştirakını bir daha nümayiş etdirir:** “Ermənistan rəhbərliyinin bu addımı Avropa İnsan Hüquqları Məhkəməsinin 16 iyun 2015-ci il tarixli "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarında qeyd edildiyi kimi, Ermənistanın ölkəmizin işğal edilmiş ərazilərində effektiv nəzarəti həyata keçirdiyini növbəti dəfə sübut edir. Beynəlxalq ictimaiyyətin bu məsələdə mövqeyi birmənalıdır: BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr başda olmaqla, bütün beynəlxalq təşkilatlar və dünya ölkələrinin ifadə etdiyi mövqeyə əsasən Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olması təsdiq edilir və işğalçı qüvvələrin bütün işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edilir".

**Rəsmi Bakı bəyan edib:** “Azərbaycan münaqişənin danışıqlar yolu ilə tezliklə nizamlanmasında və regionda davamlı sülhün təmin edilməsində ən maraqlı tərəfdir. Danışıqlar Ermənistanın Azərbaycan ərazilərinin işğalına son qoyulması ilə nəticələnməsə, Azərbaycan BMT Nizamnaməsində təsbit olunduğu kimi, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpasını təmin etmək hüququnu özündə saxlayır”.



*****

**“Mən sülh danışıqlarına inanmıram”. Bu sözləri Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov deyib (ONA). O bildirib ki, hər il verilən vədlər, yalanlar 27 ildir davam edir:** “Mən beynəlxalq təşkilatların, istər ATƏT-in Minsk Qrupunun, istər ABŞ-ın boş vədləri, bir neçə sifətli siyasətləri barədə artıq danışmaq istəmirəm. Hamı bilir ki, bunlar yalan vədlərdir. Hamı bilir ki, BMT-nin 4 qətnaməsinin olmasına baxmayaraq, o dövlətlər haqq sözünü demir”.

**İcra başçısı qeyd edib ki, Ali Baş Komandanın bir kəlmə əmri lazımdır:** “Əgər o, əmr edərsə, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edəcək”.

**Keçmiş döyüşçü, Şuşa özünümüdafiə ərazi taborunun qərargah rəisi Yavər Hüseyn “Yeni Müsavat”a açıqlamasında dedi ki, Şuşa mövzusunda 27 il danışmaq çox ağırdır:** “Müharibədə ölüm də, itim də var, torpaq da işğal olunur. Ancaq 27 il müddətində işğala dözmək əlbəttə ki, asan məsələ deyil. Mən illər uzunu bu nəticəyə gəlmişəm ki, danışıqla torpağın qaytarılması mümkün deyil. Bu danışıqlar ancaq torpaqların işğalının uzadılmasına xidmət edir. Mən həm də ali təhsilli tarixçiyəm. Tarixən görməmişəm ki, danışıqla torpaq qayıtsın”.

**Y.Hüseyn Ermənistan rəhbərliyinin Şuşada keçirilən “qələbə” tədbirlərinə qatılmasına da sərt cavab verilməsini zəruri saydı:** “Cavab əlbəttə ki, müharibə, savaş olmalıdır, başqa yolumuz yoxdur. Bəzən deyirlər ki, Rusiya, bütün xristian dünyası erməninin tərəfindədir, buna imkan verməzlər. Amma Cövhər Dudayevin yaxşı bir sözü var idi, deyirdi ki, ən güclü silah əlahəzrət xalqdır. ”10 milyonuq" deyib sinəmizə döyürük, 30-40 milyon da o tayda var, həmçinin Avropada xeyli azərbaycanlılarımız yaşayır. Bunlar səfərbər olunsa, vallah, Avropa da, Rusiya da, elə erməni də bizimlə hesablaşar. Ermənin burnu əzilməyincə, harınlayacaq və üstümüzə gələcək. Necə ki, Ermənistanın müdafiə naziri dedi hələ biz yeni torpaqları ələ keçirəcəyik. Düşmənin qabağından qaçanda təbii ki, daha da azğınlaşacaq, düşmənin üstünə gedərlər".

**Keçmiş qərargah rəisi dedi ki, vaxtilə Şuşa uğrunda döyüşmüş silahdaşları bu gün ikinci Qarabağ savaşına qatılmağa hazırdır:** “Mən bu sözü ilk dəfə deyirəm. Baxmayaraq ki, qabaqkı kimi gözlərim görmür, fiziki cəhətdən həmin adam deyiləm, amma səhhətimdə bu qədər problemlər olsa da, Qarabağ uğrunda döyüşlərə hazıram. Hesab edirəm ki, bizim o yerləri qaytarmağımız üçün fədailər ordusuna ehtiyacımız var. Ordumuz var, öz yerində. Amma mənim kimi, müharibə keçmiş, müəyyən yaşa çatmış insanlardan söhbət gedir. Mən fədailər sırasında getmək istəyirəm. Ya o torpaqda başımı qoyub ölmək, ya da qazi olmaq istəyirəm. Mən yataqda dünyamı dəyişmək istəmirəm. Bu gün ən böyük arzu-istəyim budur: əldə silah, fədai kimi düşmənin üstünə gedim, ya şəhid olum, ya da torpağımı alım. Mən gedib Şuşaya çata biməyəcəyəmsə də, mənim döyüşçü yoldaşlarım gedəcək. Amma biləcəyəm ki, biz irəliləyirik, torpağımız uğrunda döyüşürük. Vallah, bizim başqa yolumuz yoxdur”.

**Y.Hüseyn bir ağrılı məqamı da bölüşdü:** “Mənim övladlarım Şuşadan kənarda dünyaya gəliblər. Onlar nə qədər vətənpərvər olsalar belə - özüm haqqımda deyirəm ki, heç kim inciməsin - mən onların davranışından, danışığından da bilirəm ki, mənim qədər vətənpərvər olmaları mümkün deyil. Onlar mənim qədər o torpağa bağlı ola bilməyəcəklər, çünki mən Şuşada doğulmuşam, ömrümün yarıdan çoxunu orada yaşamışam. Mənim kimi Şuşaya bağlı insanlar dünyasını dəyişəndən sonra o torpağın qaytarılması daha da çətinləşir. Ona görə biz getməliyik, biz almalıyıq, balalarımız da yazıqdır, o problemləri onların çiyninə qoymaq olmaz! Neçə ildir kənara çəkilib ağlayırıq. Ağlamaq da mənə yaraşmır. Ağlamaqla da iş düzəlmir. Nə qədər canımızda can var, gec deyil. İnşallah, bizim millət qələbə qazanmağa qadirdir, biz bunu bacaracağıq”.

Əminik ki, Şuşa daxil olmaqla, bütün işğaldakı ərazilərimiz bir gün geri qaytarılacaq və bu ərazilərə dönüşümüz baş tutacaq. Ermənistan tərəf dinc tənzimləmə yolunu qəbul etsə, özünü də xilas etmiş olar, Qarabağ ermənilərini də. Paşinyan özü də Ermənistan ordusunun durumunu etiraf edirsə, əlavə şərhə ehtiyac yoxdur...

YENİ MÜSAVAT
N 100 (7270) 9 may 2019

# Təyyarənin təhlükəsiz hissəsi - ön, yoxsa arxa?

Elm adamları 105 təyyarə qəzasından xilas olan 2 min sərnişinin hansı oturacaqda əyləşdiyini araşdırıblar - nəticə təəccüblüdür



**Digər nəqliyyat növləri ilə müqayisədə təyyarələrdə qəzalar çox az hallarda baş verir. Lakin uçaqda qəza oldusa, oradan sağ çıxmaq da müşkül məsələdir. Adətən təyyarənin qəzaya düşməsi havada motor və qanadlarda yaranan problemlə bağlı olur. Kiçik və ən çox baş verən qəbildən olan qəzalar isə təyyarənin qalxma və enməsi zamanı yaşanır. Hər bir halda qəzadan təyyarəni az itki ilə çıxarmaq pilotun peşəkarlığından asılıdır. Havada motorlar sönübsə, pilot təyyarəni idarə etməklə endirə bilər. Əgər o, peşəkardırsa və təyyarənin yanacaq çəni dolu deyilsə, ciddi qəza baş verməyəcək. Bu kimi təhlükəli hallarda təyyarənin içərisində sərnişinin harada oturması, onun qəza zamanı sağ qalmasına səbəb ola biləcək faktordur. Yəni konkret desək, təyyarədə oturacaqların yerinin əhəmiyyəti var. Bəs bu əhəmiyyət nədən ibarətdir?**

Moskvada baş verən təyyarə qəzası zamanı ölənlər əsasən arxada əyləşənlər olub. Çünki təyyarənin arxası alışıb. Bəs bu, bütün qəzalarda eynidirmi?

Məlumdur ki, təyyarənin uc hissəsinə yaxın olan ilk yerlər VİP yerlər sayılır. Burada uçmaq istəyən sərnişinlər, digərləri ilə müqayisədə daha çox xərc çəkirlər. Yəni biletlər bahalıdır. Həmin hissə (biznes klass), təyyarənin ümumi hissəsindən (ekonom klass) adətən pərdə və ya bu kimi örtüklə ayrılır. Buradakı oturacaqlar arxaya gedir, yumşaqlığı ilə fərqlənir, tualet və mətbəxdən uzaqda yerləşir. Bundan əlavə, yuxarıda qeyd etdiyimiz kimi, təhlükəsizlik baxımından da önəmlidir.

Təyyarələrdə təhlükəsizlik baxımından önəmli olan oturacaqlar çıxış qapılarına yaxın yerlərdir. Qəza zamanı çıxışa yaxın yerlərdə oturan sərnişinlər təyyarədən daha tez təxliyə olunurlar.

Əl baqajı nisbətən böyük olan sərnişinlər çox zaman arxa oturacaqlara meyl edirlər. Çünki həmin hissə bir qədər genişdir və eyni zamanda qarşıdan insan axını gəlmədiyi üçün orada əyləşənlər əl baqajlarını rahatlıqla yerləşdirə bilirlər. Ancaq unutmaq lazım deyil ki, təyyarənin yanacaq çənləri arxa oturacaqlara çox yaxın məsafədə yerləşir. Əgər təyyarə yanacağını tam yandırmadan, artıq çəki ilə eniş edirsə, məhz bu hissə alışır və həmin hissədə əyləşən sərnişinlərin ölüm riski qaçılmaz olur. Onu da qeyd edək ki, hava yolu şirkətlərinin oturacaq planları var. Əgər ekonom klasda ön sırada oturmaq istəyirsənsə, o zaman bilet üçün daha tez müraciət etmək lazımdır

## Hansı oturacaqlar daha təhlükəsizdir?

Amerika Federal Aviasiya Administrasiyasının məlumatlarını nəzərdən keçirən "Time" jurnalı son 35 il ərzində təyyarə qəzalarını incələyib. Jurnal yazır ki, qəzalar zamanı təyyarənin arxasında olan orta oturacaqlarda əyləşənlər daha az zərər görüblər. Jurnal yazıb ki, əslində bu da qəzaya görə fərqlənir. Əgər təyyarə yerə çırpılırsa, hansı oturacaqda olmağın fərqi yoxdur - öləcəksən...

Bəzi mütəxəssislər "VİP yer" fikrini, sadəcə olaraq, şirkətlərin kommersiya maraqları ilə əlaqələndirirlər. Yəni nəzər yetirsək görərik ki, təyyarədəki yerlərin qiymətləri arasındakı fərq son illərdə xeyli artıb. Əksər hava yolları şirkətləri daha yaxşı yerlərə daha baha qiymət qoyurlar.

Bəzi şirkətlər ayaq uzatmaq üçün məkanı bol olan oturacaqlar üçün əlavə pul alırlar. Bir sıra başqa şirlkətlər isə sərnişin yeri özü seçdikdə əlavə haqq ödənməsini istəyirlər.

Ən arxa sırada və ya tualetlərə yaxın oturacaqlara məhkum olmamaq üçün səfərinizi əvvəlcədən planlaşdırın. Əgər hər hansı yer kateqoriyası üçün əlavə haqq ödəməmisinizsə, onda oturacağınız yer də arxadakı ekonom sinifli yerlərdən biri olacaq.

Elm adamları 105 təyyarə qəzasından xilas olan 2 min sərnişinin hansı kresloda oturduğunu araşdırıblar. Nəticəyə görə, dəhliz tərəfdə oturan sərnişinlərin 65 faizi təyyarə yanan zaman xilas ola biliblər. Bu göstərici ön cərgədə oturanlara da aiddir. Yəni nəticədən belə çıxıb ki, bileti bahalı olan biznes klasda oturanların təhlükəsizliyi, ekonom klasda dəhlizə yaxın olan oturacaqlarda əyləşənlərlə eyni dərəcədə təmin olunur. Bildirilir ki, təyyarələrdə ən təhlükəli yer pəncərə tərəfdə olan yerlərdir.

Bütün hallarda hava yolu şirkətləri tövsiyə edirlər ki, hər bir sərnişin uçuşdan öncə verilən təlimatları dinləməli, qəza zamanı nələr etməli olduğunu öyrənməlidir.

❑ **Əli RAİS, "Yeni Müsavat"**



# "Şit kinolarla camaatın zövqü korlanır, çoxu hır-hırı sevir"

## Rasim Balayev: "Telekanallarda gedən serialların heç birinə baxmıram, çünki baxanda əsəbləşirəm"

**"Bu kino çəkənlərin nazıynan çox oynayırsan haa, Kərbəlayi..." - mərhum Məlik Dadaşov sağ olsaydı "Qəmlo"nun dili ilə Azərbaycan kino sənətinə belə qiymət verərdi.**

Ya da son söz demək imkanı yaradılsaydı son nəfəsində Siyavuş Aslan "8 min pul alıblar məndən, oynamaqlarına bax" deyib gileylənərdi.

Yaşar Nuri film səhəsindəki qeyri-peşəkarlıqları, duzsuz-istiotsuz, təlxək, mütrüb, kəndirbaz, düşündürə, güldürə və ağlada bilməyən indiki aktyor-aktrisa heyətini görsə hirsindən "sənin əyri ayaqlarından "raqatka" düzəltməsəm, atamın oğlu deyiləm" deyibən şikayətlənərdi.

Səhnəmizin ilk və tək qayınanası Nəsibə xanım Zeynalova da çox güman ki, kinomuzu bu günə qoyanlara "əlün qurusun, əlüün" deməkdən çəkinməzdi.

Azərbaycan kino sənəti ötən əsrin ortaları və sonunda böyük bir məktəb qoymuşdu: neçə-neçə dahi rejissorlar, istedadlı aktyorlar, yaddaşlardan silinməyən obrazlar, filmlərimizdə personajların səsləndirdiyi sözlərin bu gün də dillərdə əzbər olması, peşəkar operatorlar, yüksək sənət nümunəsi və s.

Lakin 90-ların sonunda və ən əsası son 15 il ərzində kinomuz deformasiyaya uğramağa başladı. Bəlkə də barmaqla göstərilə bilən yeni filmlər çəkilib.

Sanki Azərbaycan kino sənəti ağ-qara ekrandan, boz bir mənzərədən ibarətdir. Axır illərdə isə yeni çıxan aktyorlar komedia filmləri, seriallar çəkməyə başlayıblar, amma onların da çoxu şit, bayağı alınır.

**Bu mövzuda səhnəmizin sonuncu mogikanlarından biri, xalq artisti Rasim Balayevlə söhbətləşmişik. Onun "Yeni Müsavat"a müsahibəsini təqdim edirik:**

**- Rasim müəllim, son illərdə bizdə dram janrında filmlər çəkilmir?**

- Səbəblər çoxdur. İlk növbədə bugünkü şit kinolarla camaatın zövqü korlanır. Çoxu hır-hırı, boş-boş, düşündürməyən gülüşü sevir. Mən bu sözü hamıya aid edə bilmərəm. Ancaq reallıqdır, əksəriyyəti mənasız komediyaya baxır.

Bir tərəfdən də bu gün sənət kommersiya olub, gəlir mənbəyi kimi baxılır. Bizim vaxtımızda sənət kommersiya deyildi. İndi ucuz, şit komediyanı çəkirlər ki, reytinq qazansınlar. Kütlə də görürlər ki, ona baxır. Təəssüf ki, belədir.

**- Biz istəsək ciddi film ortaya qoya bilmərik?**

- Niyə qoya bilmirik ki? Əslində istəsək çox yaxşı fimlər araya-ərsəyə çıxarmaq olar. Özü də ciddi sənətə aclığı olan, onu tələb edən zümrə nəzərə alınmalıdır. Onlar bu gün çəkilən həmin ucuz komediyalara baxmırlar.

Mən həmişə demişəm ki, tamaşaçının dalınca getmək lazım deyil. Azərbaycan kino sənətində ağıllı, peşəkar adamlar var, onlar ortalığa düşsələr, ciddi əsərlər meydana çıxar, tarixi filmlər, dramlar çəkilər.

**"Bizim bu günə düşməyimizin səbəbi elə tamaşaçının arxasınca getməkdir"**

Buna potensialımız çatır. Bizim bu günə düşməyimizin səbəbi elə tamaşaçının arxasınca getməkdir. Rejissor, aktyor, bütövlükdə kino adamları kütlənin zövqünü formalaşdırmalıdır.

Ona görə də bu işi səlahiyyəti olan adamlar etməlidirlər. Rasim Balayevin bir səlahiyyəti, əlində imkanı yoxdur ki, nəsə iş görsün, olsaydı edərdim.

**- Son vaxtlar Emil Quliyev adlı rejissorun "İkinci Pərdə" filmi çox müzakirə olunur. Efirə verilməyib, çünki 18+ filmdir, mən baxmışam, orada söyüş səhnələri çoxdur. Sizcə, filmdə söyüş, vülqar sözlər sənət azadlığıdırmı?**

- Qətiyyən belə deyil və mən bunun tamamilə əleyhinəyəm. Azadlıq o deyil ki, sən küçə sözünü efirə, mədəniyyətə gətirəsən. Bizi bu günə salan belə işlərdir. Söyüş rüsvayçılıqdır, onu incəsənətə necə gətirmək olar?

**"Filmə söyüş gətirilməsi gəncliyimizi pozur, onun həyata baxışlarına təsir edir"**

Belə açıq-saçıqlıq, filmə söyüş gətirilməsi gəncliyimizi pozur, onun həyata baxışlarına təsir edir. Bax belə axmaq işlərlə zövqü korlayırlar.

Bu yolla da bir qisim insanları ələ ala bilirlər, yolverilməzdir. Sənətin işi ibrət verməkdir. Elə kinolar çəkmək lazımdır ki, oradan dərs alasan.

Biz vaxtilə senzuranın ləğvini tələb edirdik, indi o vəziyyət yaranıb ki, bərpasını arzulayırıq, istəyirik ki, bu ucuz, insanlara verilən hır-hır kinolara nəzarət olunsun.

Komediya düşündürücü olmalıdır, tamaşaçıya mesaj verməlidir, oradan nəsə götürməlisən, boş-boş gülmək bizə nə verəcək? Mən bilmirəm biz bununla hara gedirik?

**- Rasim müəllim, prezident bu yaxınlarda kino sənəti üçün 5 milyon manat ayırdı, bu vəsaitlə yaxşı filmlər çəkmək mümkündürmü?**

- Bu suala birmənalı cavab vermək çətindir. Gərək kitabı oxuyub qurtarasan, sonra fikrini söyləyəsən.

Ona görə iş prosesində bilmək mümkündür ki, həmin maliyyə ilə ortaya hansı səviyyədə sənət çıxarmaq olar.

Əsas odur ki, iş görülsün, biri pis olar, ikisi pis olar, nəhayət, ortaya normal film çıxar. Bu gün qarşımızda dayanan əsas məsələ yeni nəsil yetişməsidir.

Çünki bir zəncir qırılıb, onu birləşdirmək mütləqdir. Biz yeni nəsil yetişdirə bilməsək, o zənciri bərpa eləməsək çətin olacaq.

İndi köhnə aktyorların, rejissorların əksəriyyəti yaşlıdır, xəstədir, kimisi rəhmətə gedib, film çəkə bilmirlər.

Yeni nəslin üzərinə vəzifə düşür ki, yaxşı əsər ortaya qoysunlar. Bura həm rejissor, həm aktyor, həm operator işi daxildir.

**- Siz yeni nəsil yetişməlidir söylədiniz. Yaxşı rejissor, pis aktyor olur, yoxsa aktyorun pisi olmur, rejissor pis iş ortaya qoyur?**

- Aktyorun pisi olmur. Rejissor hökmən yaxşı olmalıdır. Aktyoru rejissor yetişdirir, onu kəşf edir, hansı obrazı yaxşı yaradacağını bilir. Rejissor ssenari müəllifidir, onun təqdim etdiyi materialı aktyor işləyir.

**- Bu gün efirdə gedən "Niyə" adlı komediya serialını tərifləyirlər. Deyirlər ki, orada yer alan istedadlı aktyorlardır. Baxırsınızmı?**

- Telekanallarda gedən serialların heç birinə baxmıram. Çünki baxanda əsəbləşirəm, məni baxmağa qoymurlar. Aktyor istedadlı ola bilər. Amma heç bir sənət əlaməti yoxdur.

Axı yaxşı material, gözəl rejissor işi olmalıdır. Rejissor tamaşaçıya bu filmlə nə demək istədiyini nümayiş etdirməlidir. Bax, bu çatışmır.

**- Belə görürəm kino sənətimizin gələcəyi ilə bağlı ümidsizsiniz, ruhdan düşmüsünüz...**

- Ruhdan düşmək deyəndə ki, nə etmək olar, reallıq bundan ibarətdir: ucuz yumor, hır-hır, mənasız, şit hərəkətlər...

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (7270) 9 may 2019

# Trampın Fələstin planının detalları məlum oldu

## "Əsrin Anlaşması" hansı şərtləri özündə əks etdirir?

**İsrail mətbuatı ABŞ prezidentinin Yaxın Şərq sülh planının detallarını açıqlayıb. "HaYom" qəzetində yer alan məqalədə iyun ayında açıqlanması gözlənilən "Əsrin Anlaşması" adlanan sənədin bəndləri yer alıb.**

"Sputnik" xəbər verir ki, sənədi yayan qəzet hazırkı baş nazir Benyamin Netanyahuya yaxın mətbuat orqanı hesab olunur. Qeyd edək ki, Trampın müşaviri və kürəkəni olan yəhudi əsilli Cared Kuşnerin müəllifi olduğu plan haqda iki ildir ki, söz-söhbət dolaşır. Bu ilin fevralında isə Kuşner özü bölgəyə səfər edib, bir sıra region ölkələrində, o cümlədən Türkiyədə görüşlər keçirib. Onun müəllifi olduğu plana Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Misir kimi ABŞ-ın müttəfiqi olan ölkələr də dəstək verir. Kuşnerin planının apreldə açıqlanması gözlənilsə də, ötən həftə elan edildi ki, plan iyunda, Ramazandan sonra açıqlanacaq.

Yeri gəlmişkən, bundan əvvəl bir sıra mətbuat orqanlarında "Əsrin Anlaşması" haqda bəzi detallar açıqlanıb. Ancaq İsrail mətbuatı indi planın demək olar ki, bütün açar nöqtələrini açıqlayıb.



Sənədin birinci bölümü anlaşma hissəsidir. Plana əsasən İsraillə Fələstin Azadlıq Təşkilatı (FAT) və Qəzzaya nəzarət edən Həmas arasında üçtərəfli anlaşma imzalanacaq. Bu müqaviləyə əsasən İordan çayının qərb sahilindəki yəhudi yaşayış məskənləri istisna olmaqla hazırda Fələstin administrasiyasının nəzarətində olan ərazilərdə və Qəzzada "Yeni Fələstin" dövləti elan ediləcək.

Planın ikinci hissəsinə görə yəhudi yaşayış məskənlərinin İsrailin əlində qalacaq, eyni zamanda bu əraziləri İsrailə bağlayan yollar və yaşayış məskənlərinin əraziləri daha da genişlənəcək.

Qüds şəhəri Fələstin və İsrail arasında bölünməyəcək, ancaq hər iki dövlətin paytaxtı elan olunacaq. Qüdsün ərəb sakinləri isə Yeni Fələstin dövlətinin vətəndaşları olacaq. Qüds bələdiyyəsi İsrail dövlətinin nəzarətində olacaq. Yalnız təhsil sahəsi istisna olmaqla, bütün sahələrə Qüds bələdiyyəsi, yəni İsrail dövləti nəzarət edəcək. Fələstin dövləti isə su xərcləri və vergi ödəyəcək. Bundan başqa, ərəblərin yəhudilərdən, yəhudilərin ərəblərdən ev alması qadağan ediləcək. Eyni zamanda Qüdsə yeni yaşayış məskənləri əlavə edilməyəcək və müqəddəs məkanlarının bugünkü statusları davam edəcək.

Yeni planda Qəzza zolağına da yer ayrılıb. Qəzza üçün hava limanı, fabrik-zavod və eləcə də ticarət və kənd təsərrüfatı üçün Misirdən Qəzza ilə sərhəd bölgədə torpaq icarəyə götürüləcək. Bu ərazilərdə fələstinlilərin məskunlaşması qadağan ediləcək. İcarəyə götürülən torpaqlara görə ödənişlər də vasitəçi ölkələrlə Misir və Fələstin arasında razılaşdırılacaq.

Yeni Fələstin dövləti layihəsini dəstəkləyən və maliyyələşməsinə yardım edəcək ölkələr ABŞ, AB və neft ixrac edən körfəz ərəb ölkələri olacaq. Donor ölkələr 5 il ərzində Fələstindəki milli infrastruktur layihələri üçün 30 milyard dollar dəyərində yardım ayıracaq. Ancaq bu büdcəyə yəhudi yaşayış məskənlərinin genişlənməsi xərcləri də daxil ediləcək.

Ümumi məbləğin 20 faizini ABŞ, 10 faizini Avropa Birliyi, 70 faizini isə ərəb ölkələri ödəyəcək. Bu məbləğ ərəb ölkələrinin neft gəlirlərinə görə bölünəcək.

Kuşnerin planına əsasən Yeni Fələstin dövlətinin ordusu olmayacaq. Asayişi və təhlükəsizliyi yüngül silahlarla silahlanmış polis təmin edəcək. İsrail və Fələstin arasında xarici müdaxilə olacağı təqdirdə İsrailin Fələstini müdafiə etməsi ilə bağlı anlaşma imzalanacaq. Bunun əvəzində Fələstin İsrailə vəsait ödəyəcək.

Plana əsasən Fələstindəki silahlı qrupları, o cümlədən Həmas, İslami Cihad kimi qruplar üzərlərində gəzdirdikləri şəxsi silahlar da daxil bütün silahları təhvil verəcək. Həmas üzvləri və rəhbərlikdə təmsil olunan şəxslər yeni hökumət qurulana qədər dəstəkçi ölkələrdən maaş almağa davam edəcəklər. Qəzza zolağının sərhədləri İordan çayının qərb sahilində olduğu kimi gediş-gəliş üçün açıq olacaq.

Anlaşmadan sonrakı bir il ərzində yeni Fələstin hökumətinin müəyyən olunması üçün bütün fələstinlilərin namizəd ola biləcəyi azad və ədalətli seçkilər keçiriləcək. İsrail həbsxanalarında saxlanılan bütün fələstinli məhkumlar seçkilər və hökumətin qurulmasından bir il sonra başlamaqla, 3 il ərzində azad ediləcək.

Plana əsasən Yeni Fələstin dövlətində bir dəniz və bir hava limanı inşa ediləcək. O zamana qədər fələstinlilər İsrail hava və dəniz limanlarından istifadə edəcək. İsrail və Yeni Fələstin arasındakı sərhədlər dost ölkələrdə olduğu kimi, vətəndaşların və malların keçidi üçün açıq olacaq.

Bundan başqa, Qəzza zolağı və Ramallah, yəni İordan çayının qərb sahili bölgəsini birləşdirəcək yerdən 30 metr yüksəklikdə yol inşa ediləcək. Bu magistralın inşasında Çin 50, Yaponiya, Cənubi Koreya, Avstraliya, ABŞ və AB isə hər biri 10 faizlik pay olmaqla dəstək verəcək.

İordaniya vadisi və ya Qərb Sahilinin Ölü dəniz ətrafında yerləşən Ağvar rayonu İsrailin nəzarətində qalacaq. Bu ərazidən keçən və İsrailə məxsus olan 90 nömrəli avtomagistral genişlənəcək və iki zolağı Fələstini İordaniya ilə birləşdirəcək. Bu yolun və İordaniya ilə sərhəd-keçid məntəqələri Fələstin dövlətinin nəzarətində olacaq.

Planın işləmə mexanizmi də müəyyən olunub. Sənədə əsasən Fələstin tərəfi, yəni Həmas və ya FAT bu planı qəbul etməzsə, ABŞ Fələstinə ayrılan maliyyə yardımını dayandıracaq. Eyni zamanda digər ölkələrin də Fələstinə yardım etməsinə mane olacaq. Və yaxud da FAT qəbul edərsə, ancaq Həmas və ya İslami Cihad anlaşmanı rədd edərsə, o zaman bu iki təşkilatın liderləri cavabdeh hesab olunacaq. Bu halda İsrail və Qəzza arasında növbəti savaşda ABŞ İsrailin bu qrupları hədəfə almasını dəstəkləyəcək. Əgər İsrail bu anlaşmanı rədd edərsə, o zaman ABŞ İsrailə maliyyə yardımını dayandıracaq.

Bu plan, göründüyü kimi, ilk növbədə Fələstini təcrid edərək İsraillə anlaşmağa məcbur etmək məqsədi daşıyır. Xüsusən də Fələstin administrasiyası bu plan qarşısında çətin vəziyyətdə qalacaq. Lakin aydın məsələdir ki, hazırkı status-kvonu dəstəkləyən və faktiki olaraq işğalı leqallaşdıran bu plan Fələstində qəbul edilməyəcək. Məsələ ondadır ki, bundan əvvəlki prezidentlərin dövründə, o cümlədən Obamanın zamanında ABŞ hökuməti İsrail-Fələstin münaqişəsinin 1967-ci il sərhədləri çərçivəsində həllini dəstəkləyib. Kuşnerin planı isə faktiki olaraq işğalı tanıyır və maddi təminat əvəzində fələstinlilərin İsraillə barışmasını təklif edir. Aydın məsələdir ki, bu formada plan etiraz doğuracaq və rədd ediləcək. Lakin o da var ki, ABŞ böyük gücdür və Fələstin də daxil olmaqla, region ölkələri Vaşinqtonla hesablaşmağa məcburdur. Bu isə o deməkdir ki, gərginlik daha da yüksələcək.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

---

## Ermənistanla münasibətləri olan və olmayan müsəlman ölkələri

### Fərhad Mehdiyev: "Ərəblər bizimlə müqayisədə ermənilərlə daha yaxşı münasibətdədirlər, amma..."



**İşğalçı Ermənistan 1.5 milyardlıq böyük İslam dünyasında Dağlıq Qarabağ məsələsi və saxta "soyqırım" iddiası ilə bağlı özünə daim müttəfiqlər axtarır. Ermənilər nəinki islam ölkələri ilə iqtisadi əlaqələr qurmağa, hətta işğalı, uydurma "erməni iddiası"na yanaşmada müsəlman dünyasındakı ənənəvi yekdil, prinsipial mövqeyi öz xeyrinə dəyişməyə çalışır. İndiyədək İslam ölkələrindən yalnız yarımxristian Livan saxta "erməni genosidi"ni tanıyıb. Dağlıq Qarabağla bağlı vəziyyət isə bir az da ermənilərin ziyanınadır. Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Özbəkistan kimi ölkələr işğal faktına görə Ermənistan adında dövləti, ümumiyyətlə, tanımır.**

Hazırda İrəvan ərəb dünyasında özünə dəstək axtarmağa başlayıb. Bu günə qədər onlarla siyasi əlaqələr quran, müttəfiq olan hansı müsəlman ölkəsi var?

"Yeni Müsavat" bu sualla bağlı **politoloq-ekspert Fərhad Mehdiyev**ə müraciət edib. Öncə xatırladaq ki, Ermənistan bu günədək yalnız qonşu İranla sıx yaxınlığa nail ola bilib. Bununla belə, 57 müsəlman dövlətini birləşdirən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü kimi İran da təşkilatın Ermənistanı işğalçı kimi tanıyan sənədinə səs verib.

F.Mehdiyev bildirib ki, ərəblər bizimlə müqayisədə ermənilərlə daha yaxşı münasibətdədilər. Onun sözlərinə görə, ermənilərlə ərəblərin tarixi münasibətləri çox qədimdir. O coğrafiyada ermənilər yaşayıblar. Müsahibimiz eyni zamanda azərbaycanlıların 60 faizdən çoxunun şiə olması faktına da toxundu: "Ermənistan faktoru ərəblər üçün ciddi əhəmiyyət kəsb etmir. Onların çoxu sünnidir, biz isə əsasən şiəyik. Üçüncüsü də odur ki, əgər onlar bizə türk gözü ilə baxırlarsa, türklər ərəblərin çox da sevdiyi bir millət deyil. Siz gözləməyin ki, ərəblər islam faktoruna görə ermənilərlə hər hansı münasibət qurmaqdan çəkinsinlər. Bunun üçün heç bir şərait yoxdur".

Müsahibimiz eyni zamanda Ermənistanın Tunis, İordaniya, Əlcəzairdə, Əfqanıstanda səfirlik açmadığını, ayrıca ərəb liqasında müşahidə missiyasının olduğunu dedi.

❑ **SEVİNC, "Yeni Müsavat"**

Yeni Müsavat
N 100 (7270) 9 may 2019

# Ölkədən çıxışına qadağa qoyulan sənətçilər

## Siyahıda xalq və əməkdar artistlər, rejissor, prodüserlər də var...

**Müğənni Mətanət Əsədovanın ölkədən çıxışına qadağa qoyulub. Bu barədə axşam.az saytı məlumat yayıb. Məlumatda bildirilir ki, artıq bir neçə ildir sənətçinin ölkədən getmə hüququ tam məhdudlaşdırılıb.**

Qoyulan qadağanın səbəbi isə sənətçinin banka olan avtomobil kredit borcu ilə əlaqədardır. Belə ki, M.Əsədova öz adına kreditlə "Volksvagen" markalı avtomobil alıb. Daha sonra həmin avtomobillə qəza törədərək, onu yararsız vəziyyətə salıb. Uzun müddətdir banka borcu yığılan sənətçinin ölkədən çıxışına qadağa qoyulub. Qeyd edilir ki, müğənninin banka olan borcu təxminən 10 min manatdan yuxarıdır.

Xatırladaq ki, bundan əvvəl də bir neçə sənətçinin müxtəlif səbəblərdən ölkədən çıxışının yasaq edildiyi barədə informasiyalar yayılmışdı. Onların arasında xalq artisti, əməkdar artistlər, prodüser də var.

Məsələn, 2015-ci ildə rəsmi şəkildə Xalq artisti Aygün Kazımovanın ölkədən çıxışına qadağa qoyulmuşdu. Buna səbəb isə müğənni həmkarı Natəvan Həbibi ilə arasında gedən qalmaqallı məhkəmə prosesi idi. Belə ki, məhkəmənin qərarı ilə Aygün Kazımova Natəvan Həbibidən üzr istəməli və yaydığı məlumatları təkzib etməli olduğu halda, buna əhəmiyyət verməmiş, çıxarılan qətnaməni icra etməkdən boyun qaçırmışdı. Nəticədə Nəsimi Rayon Məhkəməsi 01 oktyabr 2015 ci il tarixdə Aygün Kazımovanın ölkədən çıxışına qadağa qoyulması barədə qərardad çıxarmışdı.

2016-cı ildə Əməkdar artist Aygün Bəylər vergi borcunu ödəmədiyi üçün ölkədən çıxışı qadağan edilmişdi.

Ölkədən çıxışına qadağa qoyulan digər Əməkdar artist Mehriban Xanlarovadır. İllər öncə Yasamal Rayon Məhkəməsi aktrisa barəsində bu cür qərar çıxarmışdı. Belə ki, aktrisa müğənni Mətanət Əsədova kimi kreditlə avtomobil alıb, sonradan pulunu ödəyə bilmədiyi üçün "Unibank" tərəfindən məhkəməyə verilmişdi. Məhkəmənin qərarını icra etmədiyi üçün aktrisanın ölkədən çıxışına qadağa qoyulmuşdu.

2016-cı ildə Vergilər Nazirliyi vergi borcuna görə ölkədən getmə hüququ məhdudlaşdırılmış fiziki şəxslərin adını açıqlamışdı. Siyahıda Əməkdar artist Abbas Bağırovun da adı var idi. Nazirlik vergi borcunu ödəmədiyi üçün müğənnini 30 min dəyərində cərimələmişdi. Müğənni isə vergi işçisinin toyuna getmədiyi üçün ona 30 min manat dəyərində vergi borcu yazıldığını iddia etmişdi.

Müğənni Ramal İsrafilov da vergi borcunu ödəmədiyi üçün bir müddət ölkədən çıxışına qadağa qoyulmuşdu.

"Zorik" ləqəbli rejissor Zöhrab Ağayev isə 2015-c ildə cəmi-cümlətanı 8 qəpik ucbatından ölkədən çıxışı qadağan edilmişdi. Rejissor bu barədə hava limanında, təhsilini davam etmək üçün İstanbula gedərkən öyrənmişdi. O, başına gələn yarıciddi, yarıgülməli olay barəsində bu cür açıqlama vermişdi: **"Hava limanında mənim qarşımı kəsdilər, dedilər ki, Vergilər Nazirliyinə borcun var, ölkədən çıxışıma "stop" qoyulub, ölkəni tərk edə bilməzsən". Mən də bu xəbəri eşidən kimi dərhal getdim Vergilər Nazirliyinə. Orada mənə dedilər ki, 8 qəpik borcun var. Mən də 8 qəpik vergimi ödədim. Vergimi ödədikdən sonra dekabrın 19-da ikinci dəfə hava limanından ölkəni tərk etmək istədiyim zaman eyni situasiya ilə qarşılaşdım. Dedilər ki, Vergilər Nazirliyinə borcun var. Mən də onlara dedim ki, 8 qəpik borcum var idi, ödəmişəm. Onlar da mənim sözlərimə cavab olaraq söylədilər ki, ölkədən çıxışınıza qoyulan qadağa hələ də qüvvədədir. Onların sözündən sonra ürəyim getdi. İndi-indi özümə gəlirəm. Onu deyim ki, bu hadisəyə görə bir çox insanlar cəzalanacaq".**

Bu günlərdə azadlığa çıxan prodüser Təranə Səmədova barəsində də 2017-ci ildə ölkədən çıxışına qadağa qərarı çıxarılmışdı. Səbəb isə hansısa banka kredit borcunun olması ilə bağlı idi.

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**


Mətanət Əsədova


Aygün Bəylər


Mehriban Xanlarova

# Bakıdan "Barselona"nın biabırçı məğlubiyyətinə reaksiyalar

## **Natiq Muxtarlı:** "Əlinin altında Messi, Suares kimi hücum futbolçuları olsun və onları müdafiədən oynamağa vadar edəsən..."

## **Kənan Məstəliyev:** ""Barsa"nın yenilənməyə, dəyişikliyə ehtiyacı var"

**Mayın 7-si gecəsi İspaniyanın "Barselona" klubu üçün zülmət gecə oldu. Kataloniya təmsilçisi Çempionlar Liqasının yarımfinalının cavab oyununda İngiltərədə "Liverpul" klubu tərəfindən darmadağın edildi. Bir həftə öncəki ilk oyunda 3-0 hesabı ilə qələbə qazanan "Barselona" qapısından 4 cavabsız qol buraxdı.**



Ötən il eyni turnirin yarımfinalında İtaliyanın "Roma" klubunu ilk oyunda 4-1 məğlub edən ispan təmsilçisi cavab qarşılaşmasında 3-0 uduzaraq Çempionlar Liqası ilə vidalaşmışdı. İki il ard-arda bu cür şoklar yaşayan "Barselona" haqlı olaraq tənqid hədəfinə tuş gəlib. Bu dəfə Kataloniya təmsilçisi öz azarkeşlərinin də qınaqları ilə üzləşib.

Gedən müzakirələrdə "Barselona"nın argentinalı ulduzu Lionel Messi ilə portuqaliyalı hücumçu Kristiano Ronaldonun müqayisəsi də aparılır. Çoxları portuqaliyalı ulduzu daha üstün sayır və bunu da Ronaldonun indiyə qədər "Mançester Yunayted", "Real Madrid" və hazırda oynadığı "Yuventus"da, eləcə də ölkə millisində lider olması ilə əsaslandırırlar. Ronaldo ilə müqayisədə Messinin "Barselona" və Argentina millisində belə bir uğur qazana bilmədiyi vurğulanır.

**Tanınmış idman jurnalisti Natiq Muxtarlı məğlubiyyətdə ispan klubunun baş məşqçisini günahkar sayır:** ""Barselona"nın "Liverpul" qarşısında belə aciz duruma düşməsinin əsas səbəbkarı baş məşqçidir. Ernesto Valverde "Barselona"nın oyun fəlsəfəsini dəyişdi. O, bu komandanı müdafiədən oynamağa məcbur etdi. "Barselona"nın özünəməxsus oyun fəlsəfəsi vardır. Bu komanda həmişə topla oynamağa alışıb. Heyətdə olan futbolçular da bu oyun fəlsəfəsinə uyğundurlar. Bu futbolçular həddindən artıq texnikalı olduqları üçün top ayaqlarında olanda özlərini rahat hiss edirlər. Vay o gündən ki, onları topsuz qoyasan. Valverde "Liverpul"la cavab qarşılaşmasında futbolçulara belə tapşırıq vermişdi: topu rəqibə verin, əks-hücumlara bel bağlayın.

Təbii, Valverde "Liverpul"un erkən qol vurmaq istəyində olacağını, bunun üçün də müdafiədə müəyyən boşluqlar buraxacağını bilirdi. Düşündüyü kimi də oldu. Amma Valverde onu nəzərə almamışdı ki, "Barselona"nın futbolçuları müdafiə olunmağı o qədər də yaxşı bacarmırlar. Onlar hücum etməyi sevirlər. Onların hücum qabiliyyəti müdafiə qabiliyyətindən qat-qat üstündür. Sənin futbolçularının belə üstünlüyü olduğu halda, onları müdafiə olunmağa məcbur etməyin bədəli də bu olmalı idi. Klopp Valverdenin səhvindən məharətlə yararlandı. Əlinin altında Messi, Suares kimi hücum futbolçuları olsun və onları müdafiədən oynamağa vadar edəsən... Bu, futbolun fəlsəfəsinə ziddir. Belə oyun fəlsəfəsi ilə Messidən nəsə tələb etmək olmaz. "Liverpul"la oyunda Messi topla demək olar ki, təchiz edilmədi. Çünki hamının başı müdafiə olunmağa qarışmışdı. Sən topu bilərəkdən rəqibə verirsənsə, rəqibin hücum potensialı ilə özünün müdafiə olunmaq bacarığının balansını bilməlisən. Valverde "Liverpul"un əsas hücum gücünün (Salahın) meydanda olmayacağını zənn edib, hesablamanı düzgün aparmamışdı. Hətta oyunun bəzi məqamlarında Messi də "Barselona"nın cərimə meydançasından kənara çıxa bilmirdi. Belə məqamda ümid qalırdı standart vəziyyətlərə ki, Messi cərimə zərbəsindən fərqlənsin. Ancaq "Liverpul"lu futbolçular bu amili nəzərə almışdılar. Onlar özlərinin cərimə meydançası həndəvərində demək olar ki, qayda pozuntusuna yol vermədilər. Belə yerdə Messi heç nə edə bilməzdi. Valverdenin taktikası onun ayağını bağlamışdı. "Barselona" ilk qarşılaşmada məhz Leonun fərdi ustalığı – bunu xüsusi vurğulayıram – Valverdenin taktiki sxemi yox, məhz Leonun fərdi ustalığı hesabına qələbə qazanmışdı. Amma cavab qarşılaşmasında "Liverpul"lular onu ustalıqla zərərsizləşdirdilər".

**Rekord.az saytının baş redaktoru Kənan Məstəliyev:** "Bu möcüzənin səbəbləri haqda çox danışmaq olar. Əsas iki istiqamət var: məşqçi və futbolçular. Məşqçi haqda danışarkən onu demək olar ki, Ernesto Valverde bu il komandasını ölkə çempionu etdi ki, bunu ən azından minimal hədəfin öhdəsindən gəlmək kimi qəbul etmək olar. Amma "Barselona" kimi komandalara daxildəki qələbələr yetərli deyil. Burada tələblər çox yüksəkdir. Məşqçi Çempionlar Liqasını qazanmırsa, ən azı finala çıxmırsa, uğursuz kimi qəbul edilir. Valverde də səhvlər etdi. Əvvəla, o, ötənilki səhvlərdən nəticə çıxarmadı, müasir futbol ən kiçik səhvi belə bağışlamır. "Liverpul" ilk oyunda 0:3 hesabıyla uduzacaq oyun oynamamışdı, "Barsa" da 3:0 udacaq. Valverde bunlara diqqət etməli idi. Etmədi və məğlubiyyət qaçılmaz oldu. Daha bir məsələ də motivasiya oldu. "Barsa"nın məşqçisi yaxşı motivator olmalıdır, hətta deyərdim ilk öncə motivator olmalıdır, sonra məşqçi. Çünki Messi, Pike, Suares kimi hər şeyi qazanmış superulduzları növbəti kuboka, titula kökləmək ən əsas məsələdir. Valverde bunu da bacarmadı. "Barselona" keçid dövrünü yaşayır. Uzun illərdir ki, komandanı arxasınca aparan ulduzların, böyük futbolçuların əksəri ya artıq yoxdur, qalanların isə yaşı keçib. Onlar fiziki, həm də mental baxımdan qocalıblar. Elə həmin Suares, Pike və Messinin yaşı 30-u ötüb. Bəli, onlar hələ də nəhəng qüvvədirlər, istənilən rəqibi yenə bilərlər, amma zaman dəyişib. Yenilər ya çox cavandırlar, ya da lazımi qədər yetişməyiblər. Kənardan bir enerji olduğu görünsə də, bu, belə deyil. Mentallıq da öz sözünü deyir. Yuxarıda da qeyd etdim ki, Messi kimi futbolçunu daha bir çempionluğa kökləmək çətin işdir. O da, bir çox digər komanda yoldaşları da yorulublar. Yetərincə qazancları var, özlərini sübut edib, adlarını futbol tarixinə yazıblar. İstəyəcəkləri bir şey qalmayıb... "Barsa"nın da yenilənməyə, dəyişikliyə ehtiyacı var və bu, aşkar şəkildə ortadadır. Məncə, bir daha ardıcıl çempionluqları sıralayacaq "Barselona"nı görməyimiz üçün xeyli gözləməli olacağıq. O ki qaldı Ronaldo-Messi müqayisəsinə, bu haqda qəti fikir ola bilməz. Hər ikisi dahidir. Biz bu futbolçularla eyni zamanı bölüşdüyümüzlə fəxr etməliyik, edirik, edəcəyik də. Fantastik oyunçu, planetar səviyyəli də personalardır. Hərəsi hansısa oyun komponentində digərini üstələyə bilər, ancaq toplamda ikisi də eyni dərəcədə möhtəşəmdir".

**❑ Cavanşir ABBASLI "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 100 (7270) 9 may 2019



# Timsah bir uşağı yedi, uşağı axtaranı isə yaralayıb öldürdü

Keniyanın Xoma-Bey şəhərində timsahlar iki nəfəri öldürüb. Bu barədə Standart Media xəbər portalı xəbər verib. 5 mayda Kennedi Onyanqo adlı oğlan Viktoriya gölünə tərəf yaxınlaşıb. O, gölün yanında paltarını təmizləmək istəyib. Şahidlərin sözünə görə, bu məqamda ona timsah hücum edib və suya daşıyıb. Yerli sakinlər həyəcan təbili çalaraq oğlanın cəsədini tapmağa cəhd ediblər. Onlardan biri bildirib ki, ölüm anında onun yanında başqa uşaqlar da olub. Şahidlər deyib ki, timsah elə yerdə gizlənmişdi ki, uşağın onu görməsi mümkün deyildi.

Axtarış zamanı yerli sakinlərdən biri də ölüb. O, qayıqdan düşən kimi timsahın hücumuna məruz qalıb və aldığı yaralardan ölüb. Kişinin cəsədini bir neçə saat keçəndən sonra yerli balıqçılar fərq edib və onu "morq"a aparıblar. Uşağın axtarışları isə hələ də davam edir. Yerli sakinlər hakimiyyəti bu işdə yardımçı olmağa çağırıblar. Viktoriya gölü Şərqi Afrikanın Tanzaniya bölgəsində yerləşir. Onun sahəsi 68 min kvadrat kilometrdir, yəni Baykalın sahəsindən iki dəfə böyük.

# Almanlar qanunun tələbi ilə arıqlayacaqlar



Almaniya həddən artıq çəki, pis qidalanma ucbatından hər keçən gün artan xəstəliklərə qarşı mübarizəni genişləndirir. Qida Nazirliyi ölkədə istehsal edilən hazır qidalarla bağlı yeni qaydalar hazırlayır. Bu qaydalara əsasən, hazır qidaların tərkibində dad, saxlanma müddəti və ya keyfiyyətinə heç bir təsir göstərməmək şərtilə duz, yağ və şəkər tozu azaldılmalıdır. Bu qidaların miqdarı ilə bağlı məhdudiyyət qanunla tənzimlənəcək. Almaniyanın qida naziri Kristian Şmidt hazır qidalardakı duz, şəkər və yağ miqdarının azaldılması üçün bir qanun hazırladıqlarını və 2019-cu ilin ortasına qədər qanunun hazırlanıb, qüvvəyə minəcəyini açıqlayıb. Bu isə Almaniyada gündən-günə artan şişmanlıq probleminin qarşısını hansısa bir formada almaq cəhdindən xəbər verir.

# Çinli velosipedçi itkin düşdü, ot yeyib həyatda qaldı

Çinli velosipedçi Tibeti təkbaşına keçmək istəyərkən bir sürü canavarla qarşılaşıb və gizlənməyə məcbur olub. Yemək sarıdan ehtiyatsız olduğu üçün bir həftə boyunca ot, otun köklərini yeyib. Bu barədə "South China Morning Post" nəşri xəbər verib. Əslində onlar gəzintiyə bir neçə nəfər olaraq çıxıblar. Amma səfərin onuncu günündə Fin elan edib ki, bundan sonra yola tək davam edəcək. O, yol yoldaşlarından ehtiyat qaz balonu, velosiped üçün ehtiyat hissələri götürüb və yola davam edib. Bir neçə gün sonra dostları Lin və Li Fen adlı velosipedçi dostlarını axtarmağa başlayıblar. Onlar iki həftə boyunca dostlarını axtarıb tapmağa cəhd ediblər. May ayının 5-də onlar, nəhayət, dostlarını tapıblar. O, göldən kənarda, atılmış bir yük maşınının yük yerində gizlənərək, canını qoruyub. Ona su və istirahət lazım idi, amma tibbi yardıma ehtiyac duymurdu.

Belə məlum olub ki, bir həftə öncə onun bütün ehtiyatı bitib. Həmin vaxtdan etibarən, o, ot və ot kökləri ilə qidalanırdı. "O deyirdi ki, velosipedi çirkin içində qalıb. Bu, çox təhlükəli idi. Bundan başqa, Fen canavar sürüsü ilə qarşılaşsa da, hər şey ötüşüb" - deyə, başıbəlalı velosipedçinin yoldaşları deyib.





# Cibində bir qəpiyi də yoxdur, amma dünya səyahətinə çıxdı

20 yaşındaki Chelsİ Snou adlı vizajist qız internetdə səyahət, eyni zamanda tanışlıq xarakterli sayta üzv olub. Burada tanış olduğu 30 kişi sayəsində bir qəpik belə xərcləmədən Kosta Rika, Fransa, Yeni Zelandiya, Norveç və ABŞ-ın dörd bir yanında, ölkə-ölkə gəzərək səyahət edib. Üstəgəl, lüks hotellərdə qalaraq. Çelsi Sno bunu dünyanın ən möhtəşəm hobbisi adlandırıb. Deyib ki, təkcə dünyanı gəzmir, eyni zamanda gözəl adamlarla da tanış olur. Əslən amerikalı olan Snou bir müddətdir ki, Londonda yaşayır. Gəzintiləri ilə bağlı ilginc bir açıqlaması da var. Deyir ki, hər nə qədər internet vasitəsilə tanış olduğu bir adamla səyahət dostluğu etsə də, hətta bütün xərcləri həmin adam tərəfindən qarşılansa da, heç kim ona romantik bir münasibətə başlamaqla bağlı təzyiq göstərmir. Gənc qadın həyatını bölüşmək istədiyi birini tapana qədər bu formada səyahətə davam edəcək.




**QOÇ** - Başqalarının adınızdan istifadə etməsinə imkan verməyin. Çalışın ki, öz işinizə özünüz qərar verəsiniz. Səhhətinizə fikir verməyi tövsiyə edən ulduzlar varlanacağınızı da bildirir. Amma səfərə çıxmayın.

**BUĞA** - Gücünüzü potensialınızın inkişafına yönəldin. Hər bir məsələdə mövqeyinizi açıq göstərməyə çalışın. Həlledici məqamlarda tərəddüd etmək və ya qapalı olmaq ziyanlıdır.

**ƏKİZLƏR** - Öz düşüncənizin mütləq doğru olduğunu zənn etməyin. Sizin kimi insanlar üçün kənar məsləhətlər əksər hallarda effekt verir. Bunu anlayın ki, nicat tapasınız. Bu gün qazanmaq ehtimalınız yüksəkdir.

**XƏRÇƏNG** - Adətən ilin bu ərəfəsində Ay sizin bürcdə olanda mütləq səhhətlə bağlı problemlə üzləşirsiniz. Bunu nəzərə alıb qeyri-ənənəvi işlərdən uzaq olun. Yalnız səfərə çıxmaq uğurludur.

**ŞİR** - Maraqlı görüşləriniz gözlənilir. Ola bilsin ki, həsrətində olduğunuz şəxslərlə rastlaşasınız. Saat 14-17 arası yeni işlərlə bağlı səmərəli sövdələşmələriniz də mümkündür.

**QIZ** - Büdcənizdə artım etmək üçün imkan qazana bilərsiniz. Bu səbəbdən də alacağınız əmanətləri əldə etmək üçün ciddi addımlar atmalısınsz. Bu gün "çağırılmamış qonaq" rolunda çıxış etməyin.

**TƏRƏZİ** - Yaxşı bir gün yaşayacaqsınız. İlahi qaydaları pozmadığınız təqdirdə bütün proseslərdən qazancla çıxacaqsınız. Bir qədər fəlsəfə və psixologiyaya vaqif olun ki, rəğbət qazanasınız.

**ƏQRƏB** - Göy qübbəsi süstlük içində olduğunuzu göstərir. Amma ümidsizləşməməli, həyata daha nikbin nəzərlərlə baxmalısınız. Kollektiv şəkildə mənəvi istirahət etmək istəyirsinizsə, tələsin.

**OXATAN** - Əgər səhhətiniz qaydasındadırsa, başqa məsələlərdə nigarançılıq çəkməyəcəksiniz. Nahar ərəfəsində aldığınız dəvətlərdən imtina etməyə çalışın. Qiymətli əşyalarınızı bərk-bərk qoruyun.

**OĞLAQ** - Maddi rifahınız normal olsa da, münasibətlər zəminində müəyyən sıxıntılarla üzləşə bilərsiniz. Bu isə son vaxtlar güzəştə getməməyinizdən doğur. Nahardan sonra mənəvi istirahətə yer verin.

**SUTÖKƏN** - Məsləhət görərdik ki, zehni işlərinizi azaldıb daha çox dincələsiniz. Fəaliyyətə isə ümumiyyətlə ara verin. Günün ikinci yarısını ailə-sevgi münasibətlərinə həsr edin.

**BALIQLAR** - Gələcək perspektivlərlə bağlı apardığınız bütün sövdələşmələriniz uğurlu olacaq. Odur ki, istənilən görüşdən imtina etməməlisiniz. Bu təqvim alqı-satqı üçün də düşərli ola bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Portağal sümüklərin düşmənidir

Alimlər portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər. Britaniya alimləri bu qərara gəliblər ki, dünyada çox məşhur olan limon və xüsusilə də portağal insanların sümük sisteminə zərər vura bilər. 22 il ərzində 78 min qadının sağlamlığı müayinə edilib. Alimlərin müşahidəsinə görə, tədqiqatın 778 iştirakçısının dişlərinin vəziyyəti kəskin pisləşib. Təhlil göstərib ki, bu meyvələrdən daimi istifadə edən qadınların 41%-nin dişlərində və diş ətlərində problem müşahidə edilib. Problemin əsas səbəbkarı kimi portağalda olan fruktoza sayılıb. Alimlər qadınlara problemdən qurtulmaq üçün portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 3.190